**Zəhra Muradova, Könül Mikayılova,**
**Tavat Muradlı, Gülnarə Şahmuradova**

# Təhsilin inkişafında məktəb və ictimaiyyətin rolu

**(Metodik vəsait)**

**"Zəngəzurda" Çap Evi**
**Bakı - 2024**

**Redaktor:** **Şahin Rəcəbov,**
AVMA İB-nin icraçı direktoru, kulturoloq

**Rəyçi:** **Vidadi Xəlilov,**
p.e.d., prof., ARTİ-nin baş məsləhətçisi

**Zəhra Bilal qızı Muradova, Könül Vaqif qızı Mikayılova, Tavat Hüseyn qızı Muradlı, Gülnarə Vilayət qızı Şahmuradova.** "Təhsilin inkişafında məktəb və ictimaiyyətin rolu". (Metodik vəsait). Bakı, “Zəngəzurda” Çap Evi, 2024, 108 səh.

Təqdim olunan metodik vəsaitdə pedaqoji kadr hazırlığında təhsilalan tələbələr və təhsil işçiləri "Məktəb icmaları"nın mahiyyətinə dair məlumatlar əldə edəcək, "Azərbaycan Valideyn-Müəllim Assosiasiyaları"nın, "Respublika Təhsil Şurası" İctimai Birliyinin, "Məktəblinin dostu" layihəsinin, "Azərbaycan Gənc Müəllimlər Assosiasiyası"nın, "Kiçik Akademiya"ların iş fəaliyyətinə bələd olacaq. Metodik vəsaitdə, həmçinin "Fənn dərnəkləri və dərsdənkənar məşğələlər"in, "Ümumtəhsil müəssisələrində Pedaqoji Şura"nın, "Valideyn Komitələri"nin, "Sinif rəhbərləri"nin iş fəaliyyətində məktəb icmalarının rolu da öz əksini tapıb.

**DOI https://doi.org/10.36719/2024/108**

**©Z.Muradova, K.Mikayılova,**
**T.Muradlı, G.Şahmuradova, 2024**
**©ZÇE, 2017**

# GİRİŞ

*"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".*

***Heydər Əliyev***

Ümummilli liderimiz Heydər Əliyevin dediyi bu sözlər dövlətin, cəmiyyətin həyatında təhsilin, elmin, məktəbin ən vacib amillər olduğunu bir daha təsdiqləyir. Təhsil insanı və dövləti fiziki güc ilə, silah gücü ilə deyil, mədəniyyətlə, təfəkkürlə, dərin zəka və elm ilə yüksəldir.

Müasir dövrdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də bir sıra yeniliklər nəzərə çarpır. Belə ki, informasiya-kommunikasiya texnologiyalarından istifadənin geniş vüsət aldığı bir dövrdə yeniliklərlə ayaqlaşa bilən, dünyəvi bilik və bacarıqlara malik olan, intellektli şəxsiyyət yetişdirməkdə mühüm vəzifə məktəbin, təhsilin və cəmiyyətin üzərinə düşür. Təhsilalanın məktəb illərində qazandığı bilik, bacarıq və vərdişlər həyatı boyu onun bələdçisi olur. Məhz bu səbəbdən də müəllim-pedaqoq adını daşıyan hər kəs, həmçinin təhsil müəssisəsinə rəhbərlik edən şəxslər məktəblərdə təlim-tərbiyə işinin düzgün qurulmasına məsuliyyətlə yanaşmalı, bütün tədris prosesinə diqqət yetirməli, şagird şəxsiyyətinə və valideyn əməkdaşlığına hörmət etməlidir. Bu işdə cəmiyyətin və valideynlərin də təhsilə, məktəbə olan baxışları, münasibətləri mühüm əhəmiyyət kəsb edir.

Bu bir həqiqətdir ki, uşaqların təlimə, məktəbə, təhsilə münasibətinə, valideyn-müəllim, valideyn-məktəb, məktəb-ictimaiyyət əməkdaşlığı əsaslı təsir göstərir. Belə ki, şagirdlərin təlim nailiyyətlərinin yüksəldilməsi məktəb, müəllim və valideyn əməkdaşlığının düzgün təşkilindən irəli gəlir.

Məktəb hər zaman təlim və tərbiyə ocağı hesab edilir. Məktəb bütün dövrlərdə yetişən nəslə elmin əsaslarını öyrətməklə yanaşı, onların cəmiyyətə və müstəqil həyata hazırlanması kimi mühüm vəzifəni də həyata keçirir.

Texnologiyanın imkanlarının genişləndiyi bir dövrdə məktəbin də fəaliyyəti, öhdəlikləri durmadan artır və inkişaf edir. Məktəb bu kimi yeniliklər mövcud olan müasir dövrümüzdə hərtərəfli, cəmiyyətə yararlı şəxsiyyətlər yetişdirməlidir. Məhz müasir cəmiyyətin qurulması və inkişafı məktəbdən, təlim-tərbiyədən asılıdır.

# ÖLKƏ PREZİDENTİNİN VƏ AİLƏSİNİN TƏHSİLƏ DƏSTƏYİ, UŞAQLARA QAYĞISI









# I FƏSİL

# İCTİMAİYYƏTİN TƏHSİLDƏ ROLU

## 1.1. AİLƏ VƏ MƏKTƏB ƏMƏKDAŞLIĞININ MAHİYYƏTİ

Uşağın ailədə tərbiyəsi prosesində qarşıya çıxan çətinliklər, uğurlar haqqında müəllim və valideynlərin qarşılıqlı əlaqəsi "Ailə və məktəb" birgə fəaliyyəti kontekstinə daxildir. Uşağın qarşılaşdığı çətinliklərin aradan qaldırılmasında, əqli və fiziki inkişafının optimallaşdırılmasında ailə və məktəbin davamlı, məqsədyönlü əməkdaşlığı mühüm amildir. Qapalı və məhdud əməkdaşlığa üstünlük verən təhsil müəssisəsində valideyn-müəllim münasibətlərini günün tələblərinə uyğun inkişaf etdirmək mümkün deyil. Məhz bu səbəbdən də əməkdaşlıq şəffaf, obyektiv və əlçatan olmalıdır.



Araşdırmalardan aydın olur ki, xarici ölkələrin və respublikamızın təhsil müəssisələrində ailə və məktəb əməkdaşlığı "daxili şəffaflıq" və "zahiri şəffaflıq" kimi iki formada xarakterizə olunur.

***"Daxili şəffaflıq"*** pedaqoji prosesi daha sərbəst, çevik, fərqli, texnologiya əsaslı etmək, uşaqlar, müəllimlər, valideynlər arasında münasibətləri humanistləşdirmək deməkdir.

"Təhsil müəssisəsinin daxili şəffaflığının təmin olunması"na tədris prosesinin bütün iştirakçılarının (uşaqlar, müəllimlər, valideynlər) fəaliyyətini, valideynlərin təhsil prosesində fəal iştirakını texnologiya vasitəsilə təmin etməkdir. Bu istiqamətdə valideynlər və cəmiyyətin digər üzvləri təhsil müəssisəsində uşaqların həyatına əhəmiyyətli dərəcədə dəstək olaraq, təhsil və tərbiyə işinə töhfə verə bilərlər.

***"Zahiri şəffaflıq"*** mikro-cəmiyyət, sosial mühit və ərazidə yerləşən mədəni mərkəzlərlə əməkdaşlığı nəzərdə tutur. Bura mədəni istirahət mərkəzləri, kitabxanalar, incəsənət muzeyləri və s. aid edilir. Burda məktəblilər müxtəlif peşə növləri və fəaliyyətləri ilə tanış olurlar.

Təhsil müəssisəsi ilə ailə arasında əməkdaşlığın təşkili mərhələləri müəyyən layihələrlə həyata keçirilmişdir. Layihələrin həyata keçirilməsinin bir sıra mərhələlər üzrə aparılması müşahidə edilmişdir.

- problemin müəyyənləşdirilməsi, məqsədlərin qoyulması, tapşırıqların təsdiqi, layihənin əsas mövzu və istiqamətlərinin seçilməsi;
- ilkin ideyaların irəli sürülməsi;
- ən yaxşı ideyanın seçilməsi;
- xüsusi layihə fəaliyyətlərinin planlaşdırılması;
- diaqnostika, gözlənilən nəticənin təbliği, layihənin qiymətləndirilməsi;




- özünü qiymətləndirmə, layihənin təqdimatı, layihənin mərhələ və istiqamətlərinin həyata keçirilməsi və s.

Ailə və cəmiyyətin məktəbə, təhsilə marağının, dəstəyinin genişləndirilməsi, təlim-tərbiyə prosesinə maraqlı tərəflərin cəlb olunması istiqamətində bir sıra layihələr həyata keçirilə bilər. Bu da təhsilin və məktəbin, ümumiyyətlə, cəmiyyətin rifahına və sağlam inkişafına zəmin yaradar. Bu istiqamətdə şagirdlər, valideynlər, məktəb kollektivi və digər maraqlı tərəflərlə birgə ictimai özünüidarəetmə, maarifləndirmə, yaradıcı düşünmə, zəka-idman yarışları, ailə müsabiqələri təşkil edilə bilər. Bu müsabiqələrdə həvəsləndirici mükafatların təqdim olunması *"Təhsilli gənc, Sağlam nəsil və Güclü cəmiyyət"* kontekstində müsbət dəyərləndirilir. "İlin ailəsi", "İdmançı ailə", "Ziyalı ailə", "Yaradıcı ailə", "Kitab dostu ailə", "Təbiətsevər ailə", "Optimist ailə" və bir sıra bu kimi layihələr *"Təhsilli gənc, Sağlam nəsil və Güclü cəmiyyət"* kontekstində təhsilin, rəqabətədavamlı, çevik təfəkkürə malik insan kapitalının inkişafına mühüm təsir göstərir.

Eyni zamanda ailə və maraqlı tərəflərin təhsil müəssisələri ilə qarşılıqlı, davamlı və məqsədyönlü fəaliyyətlərinin təmin olunmasında valideyn yığıncaqları; valideynlər üçün məsləhət; açıq qapı günü; valideynlər günü; sual-cavab gecəsi; əyləncə saatları; konfrans; lektoriya; pedaqoji emalatxanalar; valideyn Universiteti; valideynlər üçün tok-şou; valideynlər üçün klublar; dəyirmi masa; xəbər bülleteni; virtual qonaq otağı və bu kimi iş formalarının tətbiqi də müsbət nəticə verir.

***Məktəb və ailə arasındakı əməkdaşlığın əsas funksiyaları bunlardır:***



MƏLUMATVERİCİ



İNKİŞAFETDİRİCİ TƏRBİYƏ



FORMALAŞDIRICI



İSTİRAHƏT VƏ TƏHLÜKƏSİZLİK



NƏZARƏT

Qeyd olunan bu kimi funksiyalar aşağıdakı cədvələ uyğun tətbiq oluna bilər.

Məktəb və valideynlərin qarşılıqlı, məqsədyönlü əlaqələri "ailə-məktəb", "valideyn-müəllim" əməkdaşlığına müsbət təsir göstərir. Bu əlaqələr sağlam psixoloji mühitin tənzimlənməsinə və möhkəmlənməsinə şərait yaradır. Təbii ki, bu münasibətlər də mənəvi dəyərlər, şəxsiyyət amili, müasir gənc yetişdirilməsində əsas rol oynayır.

| Məktəb və valideynlərin əməkdaşlıq formaları | |
|---|---|
| **Valideyn yığıncaqları**<br>- valideynlərə fərdi kömək məqsədi ilə keçirilir və təhsilalanların aktual problemlərinin müzakirəsini nəzərdə tutur. | **Valideynlər üçün məsləhət**<br>- uşağın tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə söhbət aparılması. |
| **Açıq qapı günü**<br>- valideynlərə məktəbdə uşaqların təhsil şəraiti ilə birbaşa tanış olmaq imkanı. | **Əyləncə saatlarının təşkili**<br>- plan üzrə valideyn və uşaqlarla birgə asudə vaxtın təşkili. |
| **Valideynlər günü**<br>- məktəbin işi ilə tanış olmaq, dərslərdə və digər tədbirlərdə iştirak etmək imkanı. | **Konfrans**<br>- təcrübə mübadiləsinə həsr olunmuş elmi-praktik konfranslar. |
| **Sual-cavab gecəsi**<br>- valideynlərin sorğusu əsasında müəyyən problemlər məktəb rəhbəri və müəllimlər tərəfindən cavablandırılır. | **Lektoriya**<br>- valideynlərə uşaqların konstruktiv yanaşmalarını inkişaf etdirməyə kömək edən pedaqoji maarifləndirmə forasıdır. |
| **Pedaqoji emalatxanalar**<br>- valideynlərə məktəb mühitində psixoloji və pedaqoji anlayışları, zəruri bilikləri mənimsəməyə imkan verir. | **Valideyn Universiteti**<br>- valideynlər təhsil və təlim xüsusiyyətləri haqqında hərtərəfli və sistemli biliklər alırlar. |
| **Valideynlər üçün tok-şou**<br>- Hamı üçün aktual və ümumi problemin həllinə valideyn və pedaqoji ictimaiyyəti, təhsilalanları cəlb etmək. | **Valideynlər üçün klublar**<br>- uşaq tərbiyəsinin aktual problemlərini müzakirə etmək, asudə vaxtların təşkili və birgə fəaliyyət göstərmək məqsədi ilə fəal valideynlərin birliyidir. |

| | |
|---|---|
| **Dəyirmi masa**<br>- dəyirmi masa arxasında valideynlər və müəllimlər bərabərhüquqlu aktual məsələləri müzakirə edir. | **Virtual qonaq otağı**<br>- məktəb və ailə arasında qarşılıqlı əlaqənin virtuallaşdırılması. |
| **Xəbər bülleteni**<br>- müəllimlərə, valideynlərə, rəhbərlik nümayəndələrinə ünvanlanmış dövri nəşrdir. | **Ailə tədbirlər**<br>-milli bayramlar, ad günləri, şəhidlərin xatirəsinin yad edilməsi və s. tədbirlərin birgə təşkili. |

# ULU ÖNDƏR İRSİNİN MƏKTƏBLİLƏRƏ AŞILANMASI





## 1.2. "RESPUBLİKA TƏHSİL ŞURASI" İCTİMAİ BİRLİYİNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

"Respublika Təhsil Şurası" İctimai Birliyi 24 sentyabr 1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayında Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və 2001-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Müəllimlər qurultayında Heydər Əliyev tərəfindən "Respublika Təhsil Şurası" İctimai Birliyinin sədri vəzifəsinə professor Əjdər Ağayev təyin olunmuşdur. Professor Əjdər Ağayev azərbaycanlı şair, nasir, publisist, tənqidçi, pedaqoq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar müəllim və təhsildə mühüm xidmətləri olan görkəmli alim kimi tanınmış, elmi-pedaqoji ictimaiyyətin rəğbətini qazanmışdır. Təhsil Şurasının məqsədi təhsil sistemində demokratik və humanist prinsiplər əsasında təhsilin qurulmasıdır. Şura təhsilin bütün pillələri üzrə təlim və tərbiyə işinin, ictimai tərbiyənin, pedaqoji və elmi-pedaqoji kadr hazırlığının, milli və ümumbəşəri dəyərlərin, elmi-nəzəri fikir və təcrübələrin nailiyyətlərinin təkmilləşməsinə və inkişaf etməsinə xidmət edir. Bu istiqamətlə bağlı Təhsil Şurası bir çox respublika və beynəlxalq əhəmiyyətli layihələr və konfranslar həyata keçirir, həmçinin Lvov Vilayət Elm və Təhsil Departamenti, Ukrayna Milli Elmlər Akademiyası Təhsil Menecmenti İnstitutu, İvano-Frankovsk Vilayət Elm və Təhsil Departamenti və digərləri ilə beynəlxalq əməkdaşlıq edir. Eləcə də valideynlərin maarifləndirilməsi istiqamətində "Övladınızın dünyasına bələdsinizmi?", "Uşağınız birinci sinfə hazırlaşırsa", "Yaradıcılıq axtarışları", "Müasir dərs, yeni yanaşmalar" və s. metodik nəşrlərini qeyd etmək olar.

Təhsil Şurasının nəzdində iki icra orqanı könüllülük və hüquq bərabərliyi əsasında ümumi təhsil maraqlarını qoruyur, inkişaf etdirir:

1. İdarə Heyəti;

2. Nəzarət-Təftiş Komissiyası. Bu, birlik üzvlərinin fəaliyyətinin nizamnaməyə uyğunluğunu və maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Təhsil Şurasının əsas **vəzifələri** aşağıdakılardır:

- təhsil siyasətinin elmi-metodik və hüquqi əsaslarla həyata keçirilməsi;
- təhsil sisteminin inkişafı və yeniləşdirilməsi, ictimai-pedaqoji fikrin və milli-mənəvi tərbiyənin əlaqəli şəkildə aşılanması;
- təhsil müəssisələrinin ictimai akkreditasiyadan keçirilməsi;
- sosial təşəbbüslərin və innovasiyaların, yaradıcı və pedaqoji təcrübələrin müdafiəsi;
- respublika qurultaylarının, təhsil konsepsiyalarının hazırlanması;
- xarici ölkələrin təhsil təcrübələrinin öyrənilməsi, beynəlxalq pedaqoji əlaqələrin qurulması və s.

Azərbaycan Respublikasında 18 yaşına çatmış hər bir fiziki və hüquqi şəxs ictimai birliyin üzvü ola bilər. Birliyin təsisçiləri həm də birliyin üzvləri hesab olunurlar. Birliyə üzv olmaq istəyənlər icra orqanlarına yazılı şəkildə müraciət edirlər.

Dünyanın bir sıra ölkələrində təhsil sahəsində fəaliyyət göstərən şuralar təhsilin inkişafında xüsusi əhəmiyyətə malikdir. Təhsil şuralarının fəaliyyətinə görə diqqəti cəlb edən və bir sıra uğurlar əldə edən ölkələrin təcrübəsini araşdırdıq. Araşdırmada bu ölkələrin bir neçəsinin təhsil şuralarının fəaliyyəti haqqında məlumat öz əksini tapmışdır.

**Danimarkada** - bələdiyyələrin təhsildə xüsusi rolu var. Belə ki, hər bir bələdiyyənin nəzdində təhsil komitəsi fəaliyyət göstərir. Təhsil komitəsinin vəzifəsinə - tədris prosesinə nəzarət etmək, rəhbərlik etmək, maliyyə vəsaitlərinin bərabər paylanması, kadr siyasətini planlaşdırmaq və həyata keçirmək, dərs cədvəli üçün geniş təlimatlar hazırlamaq (məsələn, saatların sayı, fənn üzrə saatların sayı və xüsusi ehtiyaclar üçün təhsilin qaydaları), məktəbin rəhbər şurası tərəfindən təqdim olunan kurikulumun təsdiq edilməsi, rəy və məsləhətlərin verilməsi aiddir. Bələdiyyələr nəzdindəki ibtidai məktəblər üçün məqsədləri və prioritetləri müəyyən edir.

Danimarkada təhsil sahəsində məsləhətçi orqanlar da fəaliyyət göstərir. Bu məsləhətçi orqanlar təhsil nazirliyinə milli təhsil siyasətini uğurla həyata keçirmək üçün bir sıra məsləhətlər verir. Eyni zamanda məktəbin daxilində də təhsilin aşağıdakı sahələri üzrə məsləhətçi orqanlar fəaliyyət göstərir.

- İbtidai Məktəb Şurası (Folkeskolerådet);
- Peşə Təhsili və Təlim Şurası (Erhvervuddannelsesrådet);
- Texniki Təhsil Şurası (Texnikerrådet);
- Ali Təhsil Şurası (Uddannelsesrådet);
- Müəllim Kolleclər Şurası (Seminarierrådet);
- Əlavə Təlim Şurası (Efteruddannelsesrådet).

Danimarkada əyalətlər üzrə bələdiyyələr geniş səlahiyyətlərə malikdir. Onlar təhsilin inkişafına dəstək məqsədi ilə müvafiq orqanlarla birlikdə məşvərət şuraları da yarada bilərlər. Yaradılan məşvərət şuraları aşağıdakıları əhatə edir:

- Bələdiyyələrin Milli Assosiasiyası (Kommunernes Landsforening);
- Əyalət Şuraları Assosiasiyası (Amtsrådsforeningen);
- Milli Həmkarlar İttifaqı Komitələri.

***İbtidai Məktəb Şurası (Folkeskolerådet).*** İbtidai Məktəb Şurası əsasən ibtidai və orta təhsil (Folkeskole) ilə əlaqədar olsa da təhsilin digər pillələrinə də bu və ya digər dərəcədə təsir edir.

Şura başlıca vəzifə olaraq məktəblərdə tədris proseslərinin, tədqiqatların, təkmilləşdirmə işlərinin qiymətləndirilməsini, bələdiyyələrin və məktəblərin təşəbbüsü ilə keçirilən innovativ xarakterli tədbirlərin, inkişaf layihələrinin hüquqi əsaslarını nəzərdən keçirir. Bütün bu qeyd olunan fəaliyyətlərə baxmayaraq Şuranın səlahiyyəti bələdiyyələrin səlahiyyətlərinə nəzərən məhduddur. Bu da onu göstərir ki, Danimarkada təhsil sahəsində də bələdiyyələr əhəmiyyətli dərəcədə muxtariyyətə sahibdirlər.

Ölkədə fəaliyyət göstərən İbtidai Məktəb Şurası (Folkeskolerådet) cari tədris ilində səkkiz dəfə toplanır. Şuranın tərkibinə sədr, nazir tərəfindən təyin edilən Şura üzvləri və ibtidai məktəb nümayəndələrindən ibarət 14 nəfər daxildir. Nazir təhsil sahəsində müvafiq biliklərə malik olan sədri və iki üzvü bilavasitə özü təyin edir;

- İki üzv Kopenhagen və Frederiksberqin bələdiyyə və şəhər milli birliyini;
- İki üzv Danimarka Müəllimlər İttifaqını;
- İki üzv valideyn təşkilatını (Skole og Samfund);
- İki üzv tələbə (şagird) birliyini təmsil edir.
- Bir üzv Milli baş Müəllimlər Assosiasiyasının təqdimatı ilə;
- Bir üzv də Milli Məktəb Direktorları Assosiasiyası tərəfindən təyin edilə bilər.
- Bir üzv Gənclər və İdman Şurasını təmsil edir.

Şuraya daxil olan bu üzvlərin səlahiyyət müddəti üç ildir.

**Almaniya** - əyalətlərin muxtariyyəti və onların daxilində səlahiyyətlərin bölüşdürülməsi təbii olaraq məsləhətçi qurumların təşkili üçün əhəmiyyətli təsirlərə malikdir. Federal səviyyədə yalnız ali təhsil və peşə hazırlığı üzrə Məsləhətçi qurumlar var. Bu Məsləhətçi qurumlarla yanaşı, əlavə olaraq, əksər əyalətlərdə ayrıca Valideyn Şuraları da (Landeselternbeiräte) fəaliyyət göstərir. Eyni zamanda əksər əyalətlərdə xüsusi komitələr də fəaliyyət göstərir ki, burada təhsillə bağlı bir çox müzakirələr aparılır. Bunlar müəyyən mənada məqsədlərinə çatdıqdan sonra bağlanan müvəqqəti qurumlardır. Mövzudan asılı olaraq müzakirələrdə bütün orqanlar iştirak edir. Məsələn, həmkarlar ittifaqları, valideyn və şagird birlikləri, sosial tərəfdaşlar, dini təşkilatlar, özəl məktəblərin və yerli hakimiyyət birliklərinin nümayəndələri və s.

Almaniyada, həmçinin federal hökumətə ali təhsil ocaqlarında akademik tədqiqatların əsaslı və struktur inkişafı ilə bağlı məsləhətlər verən ***"Elmi Şura"*** (Wirtschaftsrat) da fəaliyyət göstərir. Şura sosial, mədəni və iqtisadi dəyişiklikləri nəzərə alır.

Elmi Şuranın 54 üzvü var. Bunlardan 32 nəfəri Federal, Prezident seçir ki, bunlar da həm akademik, həm də ictimai fəaliyyət göstərirlər. Digər 22 üzv Federal Hökumət və əyalətlərin rəhbərləri tərəfindən təyin edilir.

Şura fəaliyyəti müddətində bir sıra məsələləri müzakirə edir. Şuranın müzakirə etdiyi mövzular arasında aşağıdakılar xarakterikdir:

- ali təhsildə yeni qiymətləndirmə meyarı;
- ali təhsil və əmək bazarı arasında əlaqə;
- ali təhsildə akkreditasiya və qiymətləndirmə;
- enerji tədqiqatları və tədqiqat mərkəzlərinin əməkdaşlığı;

- universitetə aid olmayan tədqiqat müəssisələrinin qiymətləndirilməsi;
- ali təhsil müəssisələrinin struktur inkişafı;
- genişmiqyaslı akademik tədqiqatlara xüsusi şəraitin yaradılması;
- tibb fakültələrində təhsil və tədqiqatlar.

Eyni zamanda Almaniyada əyalətlərin əksəriyyətində ***"Əyalət Təhsil Şurası"*** (Landesschulrat) da fəaliyyət göstərir. Bu şuraların üzvləri, səlahiyyətləri, fəaliyyətləri və təşkili qaydaları hər əyalətə uyğun olaraq dəyişə bilər. Əyalət Təhsil Şuraları yeni kurikulumların, yeni qanunvericilik aktlarının hazırlanması, mövcud qanunvericiliyin tətbiqi, mühüm pilot layihələr və onların nəticələri kimi mühüm mövzularda məsləhətləşmələr aparır. Əyalət Təhsil Şuralarının tərkibinə müəllimlər, valideynlər, şagirdlər, dini qurumlar və ya digər qruplar (məsələn, bələdiyyə və regional assosiasiyalar, sənaye palataları, ticarət və peşələr, birliklər, gənclər təşkilatları, təhsil müəssisələri və s.), eləcə də təhsilin müxtəlif pillələrini və sektorlarını əhatə edən 26 üzv daxildir. Şurada adətən mütəxəssislər də təmsil olunurlar. Sözügedən ərazi üzrə təhsil naziri adətən Şuraya sədrlik edir. Şura yenilənə bilən üç illik müddətə seçilir.

Hər bir qrup öz nümayəndələrini seçir və daha sonra nazir tərəfindən rəsmi olaraq təyin edilir. Valideynlərin və şagirdlərin nümayəndələri müvafiq olaraq Dövlət Valideyn Məsləhət Şurası (Landeselternbeirat) və Dövlət Tələbə Məsləhət Şurası (Landesschülerbeirat) tərəfindən təyin edilir.

**Finlandiya** - dövlət təhsil müəssisələri ilə yanaşı, dövlət tərəfindən maliyyələşdirilən özəl təhsil müəssisələri də var.

Lakin bu məktəblərin əksəriyyəti ***"Milli Təhsil Şurası"*** tərəfindən müəyyən edilmiş milli kurikulumlara və qiymətlən-

dirmə meyarlarına əməl edir. Finlandiyada təhsil işçiləri təhsil siyasətinin işlənib hazırlanmasında iştirak edirlər. Qərar qəbul edən inzibati orqanların tərkibində bilavasitə maraqlı tərəflər də təmsil olunurlar.

Təhsil üzrə Milli Şuraya (Opetushallitus) təhsil ekspertləri, işəgötürənlər və işçilər, müəllimlər, bələdiyyə rəhbərləri və ya nümayəndələri, iki dil qrupu (fin və isveç) və Milli Təhsil Şurasının əməkdaşları daxildir.

Milli Təhsil Şurası birbaşa Təhsil Nazirliyinə bağlı olan mərkəzi inzibati orqandır. Milli Təhsil Şurasına (Opetushallitus) təhsil və sənaye sahəsindən, həmçinin yerli hökumətdən bir qrup ekspert rəhbərlik edir. Milli Təhsil Şurası ibtidai, orta və ali təhsil proqramlarını planlaşdıraraq təhsilin məqsəd və məzmununu hazırlayır, metodlarını təyin edir. Təhsil Şurası, eyni zamanda milli kurikulumlar və ixtisaslar üzrə təlimatları hazırlayır və təsdiqləyir. Beləliklə, Təhsil Şurası Finlandiya təhsil sistemini (ali təhsil müəssisələri istisna olmaqla) qiymətləndirir.

Hər bir ölkədə fəaliyyət göstərən şuralar təhsil sahəsində müəyyən məqsədə xidmət edir, müəyyən vəzifələri yerinə yetirir ki, bu da ölkənin ümumilikdə inkişafına səbəb olur. Belə ki, təhsili inkişaf etmiş, təhsildə uğurları, nailiyyətləri olan ölkələr bütün sahələrdə (iqtisadi, siyasi və s.) inkişaf edir, uğur qazanır. Çünki təhsil dövlətin inkişafının təməlidir, özəyidir.

# BAYRAĞIMIZ QÜRURUMUZ





# ŞƏHİDLƏR UNUDULMUR





## 1.3. "AZƏRBAYCAN VALİDEYN-MÜƏLLİM ASSOSİASİYASI"NIN İŞ PRİNSİPİ

"Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" İctimai Birliyi Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF və "Ümidli Gələcək" Gənclər Təşkilatının birgə əməkdaşlığı ilə 2003-cü ildə yaradılmış və 5 pilot məktəbində (Bakı şəhər Bakı Avropa Liseyi, Quba şəhər 2 saylı, Şəki şəhər 10 saylı, Qəbələ rayonu Vəndam kənd və Masallı rayonu Köhnə Alvadı orta məktəb) fəaliyyətə başlamışdır.

Valideynlərin təhsildə tənzimləyici rolunu əsas tutan "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası"nın (AVMA) mahiyyətini aşağıdakı kimi qeyd etmək olar:

- valideynlər məktəb kurikulumunun həyata keçirilməsində və ailə tədbirlərinin planlaşdırılmasında köməklik göstərir;
- məktəb məsələləri və qarşıdan gələn tədbirlərlə bağlı valideynlərlə müntəzəm ünsiyyəti təmin etmək üçün Keyfiyyətin İdarəedilməsi Sistemi (KİS) rəhbərliyi ilə işləyir və məlumatı valideynlərlə bölüşə bilir;
- valideynlər məktəb həyatına cəlb edildikdə uşaqlar daha yaxşı öyrənir və nəticələri valideynlər də görə bilir;
- Assosiasiyanın üzvləri dərsliklərin, dərs vəsaitlərinin, məktəbdə, təlim prosesində istifadə olunan resursların hazırlanmasında iştirak edir;

- Assosiasiyanın fəaliyyətini tam sərbəst, müstəqil, şəffaf, məhsuldar şəkildə təmin etmək üçün onun sədri, müavinləri, hətta maliyyə məsələlərinə nəzarət edən şəxs və üzvləri olur.

Valideyn-tədris yığıncaqlarında müəllimlər valideynlərə məktəbin təhsil siyasətini izah edir, valideynlər isə rəhbərlərə, qəyyumlara və müəllimlərə arzularını bildirirlər. Müəllimlərlə birlikdə sinifdəki problemləri, məktəb təhsil problemlərini müzakirə edirlər. Valideyn-müəllim görüşlərinin təşkili ilə müəllimlər və valideynlər arasında qarşılıqlı anlaşma, dostluq, yardımlaşma kimi keyfiyyətlər də təşviq edilə bilər.

AVMA nümayəndələri məktəbin daxilində olan məsələlərə, problemlərə deyil, eyni zamanda yaxınlığındakı təhlükəli ərazilərə baxış keçirirlər. Mövcud olan təhlükələr haqqında və təhlükəli ərazilər barədə polis əməkdaşlarına məlumat verirlər. Həmçinin hər bir şagirdin ailəsinə verilməsi məqsədi ilə təhlükəli zona xəritəsi hazırlayırlar. "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası"nın iş funksiyasına aşağıdakılar daxildir:

- əlverişli yerli təhsil mühitinin saxlanılması və təhsil tədbirlərinin keçirilməsi üçün valideynlərlə əməkdaşlığın əldə edilməsi;
- məktəb mühitində asayişin qorunması;
- təhsildə könüllülük işi (məsələn, siniflərdə hekayələr oxumaq);
- valideynlər və müəllimlər arasında qarşılıqlı anlaşmanı təşviq etmək üçün valideynlərin fikirləri və ya xahişləri barədə müəllimləri məlumatlandırmaq;
- məktəb fəaliyyəti ilə bağlı məktəb siyasəti və ideyaları barədə valideynləri məlumatlandırmaq;
- valideyn-müəllim yığıncaqlarının keçirilməsi, həmin iclaslarda şura məclisi məmurlarının valideyn müraciətlərini məktəblərə çatdırması;

- "Azərbaycan Valideyn- Müəllim Assosiasiyaları" xəbərlərinin dərci;

- eyni zamanda valideynlər və müəllimlər üçün təhsil və valideynlik mövzusunda seminarlar keçirmək;

- mühazirələr, müzakirələr, tədris səfərləri təşkil etmək.

"Azərbaycan Valideyn-Müəllim Assosiasiyaları"nın yaradılması aşağıdakı məqsədlərə, zəruri vəzifələrin yerinə yetirilməsinə xidmət edir:

- şagirdlərin ailələri və məktəb arasında əməkdaşlığın inkişaf etdirilməsi. Şagirdlərin, müəllimlərin və məktəbin uğurları, nailiyyətləri, inkişafı üçün müsbət münasibətləri təşviq etmək;

- şagirdlərin inkişafı, təlim uğurlarının artması ilə bağlı məsələləri öyrənmək və müzakirə etmək üçün platforma yaratmaq. Eyni zamanda məktəb rəhbəri ilə birlikdə tədris və təlimin keyfiyyətinin yüksəldilməsinə dəstək vermək;

- şagirdlərdə sosiallaşmanın, sosial məsuliyyətin aşılanmasına, onların ictimai işlərdə iştirakını təmin edən müxtəlif məktəb tədbirlərinin təşkilinə və keçirilməsinə köməklik etmək.

AVMA-nın ***funksional vəzifələri:***

1. Valideynlərin məktəb fəaliyyətinə cəlb edilməsinə köməklik etmək.

2. Məktəb-valideyn arasında əlavə ünsiyyət vasitəsi kimi çıxış etmək.

3. Rəsmi olaraq tanınmış xeyriyyə təşkilatları ilə birlikdə müxtəlif sosial əhəmiyyətli tədbirlərin təşkilinə təşəbbüs göstərmək və həyata keçirmək.

Qeyd etdiyimiz kimi, AVMA-nın üzvləri tərəfindən sədri, sədr müavinləri, katibi, maliyyə işlərinə cavabdeh olan şəxs və baş məsləhətçisi də seçilir. Bunların hər birinin Assosiasiyanın uğurlu fəaliyyətində özünəməxsus işi, vəzifələri var.

***Assosiasiya sədrinin funksional vəzifələri:***

- AVMA-nın idarə heyətinin üzvlərinin funksional inkişafı;
- gündəlik görüləcək işlərin müəyyənləşdirilməsi;
- görüşlərin təşkili və iştirakçıları məlumatlandırmaq;
- iclaslara sədrlik etmək;
- AVMA-nın işini qurmaq və idarə etmək;
- qəbul edilmiş qərarların icrasına nəzarət etmək;
- valideynlərlə məktəb arasında münasibətləri yaxşılaşdırmaq üçün vasitəçi mövqeyindən çıxış etmək.

***Assosiasiya sədr müavininin funksional vəzifələri:***

- sədr olmadıqda iclaslara sədrlik etmək;
- qəbul edilmiş qərarların icrasını izləməkdə sədrə köməklik etmək.

***AVMA-da təmsil olunan ümumi məktəb valideyn komitəsi rəhbərinin funksional vəzifələri:***

- AVMA-nın sədri ilə birlikdə "Azərbaycan Valideyn-Müəllim Assosiasiyaları"nın fəaliyyətinin illik planını tərtib etmək;
- sinif rəhbərləri arasında düzgün münasibətlərin qurulmasını təmin etmək;
- ayrı-ayrı sinif valideyn komitələrinin üzvlərinin qəbul etdikləri qərarları və fəaliyyətləri haqqında ümumi məktəb AVMA-nı məlumatlandırmaq, onların qarşılıqlı və vəhdət şəklində fəaliyyətini təmin etmək.

***AVMA-nın katibinin funksional vəzifələri:***

- gündəlik məsələlərin müəyyən edilməsində və icra edilməsində sədrə köməklik etmək;
- görüşlərin protokollarını toplayıb saxlamaq;
- Assosiasiyanın bütün kargüzarlıq işlərini yerinə yetirmək;
- iclasların protokollarını "Valideyn-Müəllim Assosiasiyaları"nın icra şurasının bütün üzvlərinə vaxtında göndərmək.

***Xarici ölkələrdə fəaliyyət göstərən VMA-lar.***

"Valideyn-Müəllim Assosiasiyaları" dünyanın demək olar ki, bütün məktəblərində fəaliyyət göstərir. Amerikanın Miçiqan Təhsil Departamenti valideynlərin məktəblə əməkdaşlığını vacib şərt hesab edir. Departamentin fikrinə görə, valideynlər uşaqların təhsilinə nə qədər tez qoşularsa, təhsilin təsiri, təlimin keyfiyyəti bir o qədər güclü və yüksək olar.

Departamentin araşdırmaları göstərir ki, uşaqların öyrədilməsi prosesinə valideynlərin cəlb edilməsi aşağıdakılara kömək edir:

✦ Daha yüksək şəxsi nailiyyət əldə edilir;
✦ Dərslərə davamiyyətin artırılmasına xidmət edir;
✦ Artan motivasiya özünəhörmət hissini artırır;
✦ Narkotik və spirt istifadəsini azaldır;
✦ Aqressiv davranışın təzahürünü aradan qaldırır.

Eyni zamanda araşdırmada o da qeyd olunur ki, valideynlər övladlarının təhsilində nə qədər çox və müntəzəm iştirak etsələr, onların özünəinam hissinin artmasına, düzgün qərar qəbul etmələrinə köməklik edir və onlarla fikir mübadiləsi aparsalar, uşaqların nailiyyətləri bir o qədər çox olar.

Avropa məktəblərində valideynlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Avropada valideynlərlə ünsiyyət, əməkdaşlıq təlim prosesində effektiv öyrənmə üçün ilkin şərtdir. Belə ki, şagirdin ailəsi və onun sosial statusu, rifahı birbaşa məktəbdə baş verən proseslərdə heç də az əhəmiyyət kəsb etmir.

**İspaniyada** "Valideyn-Müəllim Assosiasiyaları"nın fəaliyyətinə aşağıdakılar daxildir:

- müxtəlif formatda ildə 3-4 dəfə valideyn iclasları keçirilir. Adətən dərs ilinin əvvəlində və sonunda təşkil olunan iclaslara bütün valideynlər eyni vaxtda dəvət olunduğundan ümumi iclas adlanır;

- ilk valideyn iclası adətən dərs ilinin başlanmasından bir ay sonra keçirilir. İclasda müəllim uşaqların istifadə edəcəyi kurikulum, dərslik və dərs vəsaitlərindən, sinifdənxaric və məktəbdənkənar fəaliyyətlər, keçiriləcək tədbirlər haqqında məlumat verir. Bundan əlavə, valideynlər üçün məktəbdaxili ekskursiya təklif olunur ki, bu zaman onlar övladlarının hansı siniflərdə oxuyacağını, sinif otağının sanitar-gigiyenik vəziyyətini, fasilə zamanı harada dincələcəklərini görür, idman zalı, idman meydançası, akt zalı ilə tanış olurlar.

- İspaniyada uşaqlar günün böyük bir hissəsini məktəbdə keçirir. Bu müddətdə uşaqların iki saatlıq nahar fasiləsi olur. Həmin müddət ərzində onlar məktəbdə qalıb yeməkxanada nahar edə və ya məktəbin həyətində asudə vaxt keçirə bilərlər. Nahar fasiləsini məktəbdə keçirəcək olan şagirdlərin valideynləri ilə müəllim ümumi yemək çeşidlərindən və onların qiymətindən danışır.

- İspan məktəblərində valideyn-müəllim iclaslarında valideynlərə müəyyən bir fənn üzrə əlavə iş dəftərləri, test tapşırıqları, çalışmalar toplusu almaq təklif edilə bilər, lakin valideynlərdən biri bundan imtina edərsə, müəllim həmin uşağa fərdi yanaşır və başqa vasitələrdən istifadə edərək tapşırıqlar verir.

Birinci rübün sonuna yaxın müəllim valideynləri övladlarının təlim nəticələri ilə tanış etmək məqsədi ilə fərdi görüşə dəvət edir.

- valideyn-müəllim fərdi görüşünün formatı və vaxtı əvvəlcədən razılaşdırılır. Belə ki, valideyn məktəbə gəlib müəllimlə qarşılıqlı danışa və ya onlayn görüşə bilər.

- bu görüşlərdə ancaq şagird haqqında danışılacaq. Onu da qeyd etmək lazımdır ki, bu görüşdə şagirdlərin qiymətləri sadalanmır. Çünki bunun üçün hər bir şagirdin və onun valideynlə-

rinin elektron sinif otaqları var. Valideyn istədiyi zaman övladının təlim nəticəsi ilə tanış olmaq üçün elektron sinfə daxil ola bilir. Müəllimlər valideynlərin istəyi ilə şagirdlərin təkcə sinifdə deyil, tənəffüs zamanı da fərdi xüsusiyyətlərinə, yoldaşları ilə münasibətlərinə, ünsiyyətinə, qabiliyyətlərinə, hansı əhval-ruhiyyədə olmalarına diqqət yetirir.

Həmçinin görüşdə şagirdin akademik nailiyyətlərinə diqqət yetirilir. Valideynlərə övladlarının hansı fənlərdə müvəffəqiyyətlər qazana biləcəyi və necə kömək lazım olduğu bildirilir.

Valideynlərlə bütün ünsiyyətlər məktəbin təlim platformasından keçir. Valideynlər məktəbə dəvətləri daha çox elektron poçtla alırlar. Çox az hallarda, təcili vəziyyətlərdə məktəbdən zəng vurulur. Müəllim öz şəxsi nömrəsini heç vaxt valideynə vermir. Müəllimlə danışmaq lazımdırsa, məktəbin ümumi nömrəsinə zəng edilir.

İspaniyada valideynlə görüş zamanı övladının pis nəticəsi qabardılmır. Valideynlərə tövsiyə olunur ki, uşağının çətinliyi nədədir, övladına necə kömək edə bilər. Həmçinin valideynlərə tövsiyə olunur ki, şagirdlərin əlavə dərslərə ehtiyacı yoxdur. Çünki onların asudə vaxtlarını əllərindən almaq olmaz. Bu, təlimin keyfiyyətinə daha çox mənfi təsir edir. Belə ki, şagirdlərdə fiziki və psixoloji yorğunluq yaranır.

Müəllim-valideyn görüşlərində əsas mövzulardan biri də sosiallaşma və ünsiyyət bacarıqlarıdır.

İspan məktəblərində "Məktəb, Müəllim və Valideyn Assosiasiyası"nın fəaliyyətinə daxil olan işlərdən biri də tətil zamanı uşaqların necə və nə ilə məşğul olmaları barəsindədir. Bununla bağlı hər hansı bir mövzuya diqqət edə bilərlər.

Lakin bu, məcburiyyətlə, təkidlə deyil, anlayışla həyata keçirilməlidir.

**Fransa** məktəblərində fəaliyyət göstərən "Valideyn-Müəllim Assosiasiyaları"nın fəaliyyəti də diqqət mərkəzindədir. Burada Assosiasiya məktəbin demək olar ki, bütün fəaliyyətində iştirak edir. Tədbirlərin təşkil olunması, valideyn və müəllim əməkdaşlığının təmin olunması, şagirdlərlə bağlı hər hansı bir məsələdə bu Assosiasiya xüsusi rola malikdir. Bu ölkədə ümumi valideyn iclasları olduqca nadir hallarda keçirilir. Valideyn iclaslarının planlaşdırılmasına da məktəbdə fəaliyyət göstərən Assosiasiya nəzarət edir. Planlaşdırılan valideyn iclasları elektron poçt və ya məktəb platformasında əvvəlcədən elan (onlayn da ola bilər) olunur. Valideynlərin iştirakı istəyinə uyğun təmin edilir. Belə ki, onların övladlarının təlim nəticələrini məktəbin və sinfin platformasında izləmək imkanları var. Məhz bu səbəbdən görüşdə şagirdin təlim nailiyyətlərindən danışılmır.

Fransa məktəblərində müəllimlərlə fərdi görüşlər də keçirilir. Bu görüşlərdə hər bir fənn müəllimi şagirdin təlim prosesində davranışlarından söhbət açır, sosiallaşmasının nə səviyyədə olduğunu valideynin diqqətinə çatdırır.

Keçmiş sovet ölkəsi olan **Slovakiyada** "Valideyn-Müəllim Assosiasiyaları"nın fəaliyyəti **Ukrayna** "Valideyn-Müəllim Assosiasiyaları"nın fəaliyyəti ilə eynilik təşkil edir. Belə ki, bu ölkələrdə VMA görüşləri ildə 3-4 dəfə keçirilir. Bu görüşlərdə təşkilati məsələlər müzakirə olunur. Məktəbin valideyn şurasına nümayəndələrin seçilməsi, məktəbə və sinif fondlarına yardımlar edilməsi qaydaları, həmin vəsaitlərin necə və harada istifadə olunması mexanizmi müzakirə olunur. Həmçinin bu görüşlərdə günü uzadılmış qrupların fəaliyyəti, bu qruplarda olan şagirdlərin nahar xərcləri müzakirə olunur.

"Valideyn-Müəllim Assosiasiyaları"nın təşkilatçılığı ilə hər bir sinif rəhbəri öz sinfinin valideynləri ilə görüşlər keçirir. Bu görüşlərdə, iclaslarda sinif rəhbəri sinif şagirdlərinin sinif

uğurları və ümumi nəticələri haqqında hesabat verir. Eyni zamanda bu görüşdə sinifdənxaric və məktəbdənkənar tədbirlər (ekskursiyalar, teatrlara, muzeylərə, kitabxanalara səyahətlər və s.) planlaşdırır. Valideynlərə övladlarına necə köməklik göstərmələrini, nə zaman dəstək durmalarını tövsiyə edir. Valideynlər də öz növbələrində övladlarının təlim prosesindəki davranışı, qavrama dərəcəsi, çətinlikləri, onların maraqları və arzuları ətrafında müəllimlərlə müzakirə aparırlar.

Bəzən VMA-nın təşkilatçılığı ilə icma görüşləri də keçirilir. Bu görüşlərdə assosiasiyanı təmsil edən nümayəndə ilə yanaşı, müəllim, valideyn və şagirdlərin də iştirakını təmin edirlər. Bu cür təşkil olunan görüşlərdə uşaqlar əylənir, valideynlər çay süfrəsi təşkil edir. Qarşılıqlı söhbətlərin və müzakirələrin aparılması onların mənəvi zövq almalarına və sosiallaşmasına müsbət təsir göstərir.

Hər hansı bir görüşün sonunda "Valideyn-Müəllim Assosiasiyaları"nın nümayəndəsi, müəllim və valideyn birlikdə növbəti görüşü və bunun üçün müzakirə ediləcək məsələlərin siyahısını planlaşdırırlar. Bu plana məktəbdə təlim şəraiti, tətildə və dərs zamanı hansı kitabları oxumaq, məktəbdaxili qaydalar, səfərlər və ekskursiyalar üçün şərait daxil edilir. Əgər hər hansı bir şagirdin validevninə fərdi olaraq əlavə izah verilməlidirsə, müəllim bunu istənilən formada edə bilər (telefonla zəng, messencerə mesaj göndərmək, görüş təşkil etmək).

Məktəb platformaları şagirdlərin təlim nəticələri barədə valideynləri dərhal məlumatlandırmaq üçün istifadə olunur. Slovakiyada ən çox yayılmışı EduPage-dir (təhsil portalı). Bu, ümumtəhsil məktəbləri üçün nəzərdə tutulmuş interaktiv *bulud sistemidir.* Ondan təhsil prosesinin bütün iştirakçıları istifadə edə bilər. Valideynlər və uşaqlar sinif rəhbərindən fərdi giriş kodu alırlar. Buradan müəllim uşağın dərsdə olması ilə bağlı

validеynlərə qeydlər etmək, distant təhsil, onlayn dərslər keçirmək, dərs planları və materialları hazırlamaq, elektron jurnal və gündəliklər saxlamaq, şagirdlərə ev tapşırıqlarını vermək, sınaq imtahanı aparmaq, qiymətləndirmə və s. məlumatlar üçün istifadə edir. Bütün bunların sayəsində valideynlər mütəmadi olaraq övladlarını müşahidə edə bilir.

**Finlandiyada** "Valideyn-Müəllim Assosiasiyaları"nın nümayəndələrinin iştirakı ilə valideyn iclasları təşkil olunur. Bu görüşlərin, yığıncaqların təşkilində məqsəd ailəyə təkcə təhsilalanların təlim nəticələri haqqında məlumatı çatdırmaq deyil, həm də valideynləri məktəblə fəal ünsiyyətə, əməkdaşlığa cəlb etməkdir. Müəllimlərə isə yalnız tədbirin vaxtı və yeri ilə bağlı valideynləri xəbərdar etmək öhdəliyi deyil, həmçinin müzakirə olunacaq mövzuları təklif etmək də tövsiyə olunur. Valideynlər, həmçinin övladlarının təlimi ilə bağlı onları maraqlandıran suallar verə bilərlər.

"Valideyn-Müəllim Assosiasiyaları"nın baş məsləhətçisi bütün tədbirlərin, görüşlərin təşkilində xüsusi rol oynayır. Araşdırmada Finlandiya Valideynlər Assosiasiyasının baş məsləhətçisi Tuija Metsonun fikirləri qeyd olunmuşdur. Məsləhətçinin sözlərinə görə, fin məktəblərində ildə 1-3 dəfə "Valideyn axşamları" keçirilir. Bu axşamlar məktəbin bütün valideynləri, paralel və ya bir sinif valideynləri üçün hesablana bilər. "Valideyn axşamları"nda iştirak edən valideynlər, müəllimlər, assosiasiyanın nümayəndələri məktəbin fəaliyyəti və ya öyrənmə ilə bağlı cari məsələləri, qiymətləndirmə üsulları, təlimə, məktəbə dəstək və ya zorakılığa müdaxilələr və s. mövzuları müzakirə edirlər. "Valideyn axşamları" indi daha interaktiv xarakter alır və valideynlər müzakirələrdə fəal iştirak edirlər. Əgər görüşdə anketlərin doldurulması və ya rəsmiləşdirilmiş sualların cavablandırılması nəzərdə tutulursa, vaxt itirməmək, bunu əv-

vəlcədən onlayn etmək tövsiyə olunur. Müəllim görüşlər zamanı oturacaqların yarımdairə şəklində düzülməsinə, başlanğıcda qısa bir çıxış edərək istirahət, mühit yaratmağa diqqət yetirməlidir. Yəni qeyd olunur ki, valideyn iclasında ab-havanın qeyri-rəsmi olması daha yaxşıdır. Görüşün başlanğıcı, bir qayda olaraq, məlumat xarakteri daşıyır. Belə ki, müəllim (sinif rəhbəri) övladlarının təhsilinin əsas məqamları - sinifdəki ab-hava, bütövlükdə uşaq kollektivinin nailiyyətləri, münasibətləri, uşaqların təhlükəsizliyinin təmin edilməsi və s. ilə valideynləri tanış edir. Sonra valideynləri əvvəlcədən aldıqları "gündəlik" məsələləri müzakirə etməyə dəvət edir. Bəzən belə müzakirələr qrup işi formasında həyata keçirilir və nəticələri valideynlərin hər birinə çatdırılır.

Finlandiyada məktəblərin demək olar ki, 75%-də VMA, bir çox siniflərdə isə valideyn komitələri fəaliyyət göstərir. Lakin onu da qeyd etmək lazımdır ki, valideyn komitəsi də VMA-nın tərkibinə daxildir. Onlar vəhdətdə fəaliyyət göstərərək bir-birinin işinə yardım edir. Bu komitələrin əsas işi sosial tədbirlər, müzakirələr, ekskursiyalar, sinifdə şagirdlərin bir-birinə dəstək, yardım etməsini təşkil etməkdən ibarətdir.

Finlandiyada təhsil tələbələr üçün pulsuzdur. Lakin valideynlər və ya valideyn komitələri, assosiasiyalar bir sıra tədbirlərin həyata keçirilməsi üçün məktəbdə maddi dəstək göstərə bilərlər. Məsələn, düşərgə məktəbləri və ya ekskursiyalar üçün vəsait toplaya bilərlər. Valideyn birlikləri məktəbin inkişafında iştirak edə və ya qərarların qəbuluna təsir göstərə bilərlər.

Finlandiya məktəblərində məktəb rəhbərləri assosiasiya nümayəndələri, müəllimlər və valideynlərlə fərdi görüşlər də təşkil edir. Bu zaman şagirdin inkişafı, təlim nəticələrinin yüksəlməsi, təlim nailiyyətlərinin artması istiqamətində görülməli olan işlər müzakirə olunur. Bu görüşlər müəllimin, valideynlə-

rin və şagirdlərin təşəbbüsü ilə keçirilə bilər. Həqiqətən də Finlandiyada şagirdin yanaşması və düşüncəsi effektiv öyrənmə, təlimdə uğur qazanmaq üçün son dərəcə vacib hesab olunur. Buna görə də məktəbdə uşaqların iştirakı ilə vaxtaşırı valideyn yığıncağı keçirilir və burada hər kəs müzakirə mövzuları təklif edə bilir.

**Yaponiyada** da "Valideyn-Müəllim Assosiasiyaları" fəaliyyət göstərir. Bütün dövlət məktəblərində, istər ibtidai, istərsə də orta məktəblərdə Assosiasiyanın fəaliyyəti ilə bağlı bir həqiqət var ki, bu da Assosiasiyalara üzvlük könüllülük əsasındadır. VMA-nın fəaliyyətində ayrı-ayrı şəxslər və komitələr iştirak edə bilər. Assosiasiya prezidentləri "Valideyn-Müəllim Assosiasiyaları"nı təmsil edir və onlara cavabdehdir. Assosiasiya prezidentləri adətən şagirdlərin valideynləri arasından seçilir. VMA-nın vitse-prezidentləri müəllimlər, bir çox hallarda isə müdir müavinləri arasından seçilir. Bəzən də vitse-prezidentlərdən biri müəllim, digəri valideyn ola bilər.

Yaponiyada bəzi "Valideyn-Müəllim Assosiasiyaları"na psixoloji və sosial vəziyyəti qənaətbəxş hesab olunan ailələr cəlb olunur. Bunun da bir sıra üstünlükləri var. Çünki belə ailələrdən olan şəxslər şagirdlərin qayğısına qalmaq imkanına daha çox malikdirlər. Həmçinin məktəbdaxili və məktəbdənkənar tədbirlərin təşkilində daha fəal iştirak edə bilərlər.

"Valideyn-Müəllim Assosiasiyaları" seminar, təbliğat və mühasibatlıq kimi komitələrə bölünür.

Yaponiyada VMA nümayəndələri şagirdlərin yaşadıqları evlərə gedirlər. VMA nümayəndəsi kimi müəllimlərin şagirdlərin evlərinə getmələrində məqsəd:

1. Şagirdlərin ailə vəziyyəti və yaşayış mühitini öyrənmək;
2. Şagirdlərin ailədə və cəmiyyətdəki rolunu müəyyənləşdirmək;

3. Valideynlərin övladları üçün təhsil ehtiyaclarını müəyyən etmək;

4. Müəllimlərin və ya məktəblərin təhsil fəlsəfəsini valideynlərə çatdırmaq.

Müəllimlərin şagirdlərin evlərinə getməsinə məktəb rəhbərliyi tərəfindən də şərait yaradılır. Belə ki, dərs ilinin əvvəlində müəllimlərin bir-iki həftə ərzində dərs saatları qısaldılır, klub fəaliyyətləri ləğv edilir. Bu halda müəllimlərin dərsdən sonra boş vaxtlarında gündə bir neçə evə baş çəkmələri mümkün olur. Müəllimlər valideynlərlə əlaqə saxlayır və səfərlərini əvvəlcədən planlaşdırırlar:

"Valideyn-Müəllim Assosiasiyaları" tərəfindən "Açıq sinif günləri" təşkil olunur. "Açıq sinif günləri"nin məqsədi valideynləri övladlarının məktəbdə və sinifdə uşaqlarla münasibəti, həmçinin təlim nailiyyətləri barədə məlumatlandırmaq, eləcə də valideynlə müəllim arasında qarşılıqlı anlaşma və əməkdaşlığı təmin etmək, öyrənməyə şərait yaratmaqdır. Məktəblərdə valideynlər üçün "Açıq dərs günləri" əsasən rübdə bir dəfə keçirilir. Təşkil olunan "Açıq dərs günləri"ndə valideynlərə tədris olunan fənlər, o cümlədən "Valideyn-Müəllim Assosiasiyaları"nın konfransları, sinif iclasları və eyni gündə keçirilə bilən sinif yığıncaqları kimi tədbirlər də daxil olmaqla, cədvəl barədə əvvəlcədən məlumat verilir.

**Almaniyada** "Ümumi Valideynlər Şurası" fəaliyyət göstərir. Şura tədris ilinin əvvəlindən ilk olaraq məktəbə gələn şagirdlərin valideynləri ilə tanışlıq gecəsi keçirir. Bu gecədə fərdi siniflərdə, ibtidai sinifdən başlayaraq məktəbi bitirmə dövrünə qədər valideynlərdən iki nümayəndə seçilir: sinif sədri və sədr müavini. Hər sinifdən seçilmiş bu valideynlər avtomatik olaraq "Ümumi Valideynlər Şurası"nı (ÜVŞ) təşkil edirlər. "Ümumi Valideynlər Şurası" qanunlarla idarə olunur və struk-

turunda sədr, sədr müavini, katib və xəzinədar kimi vəzifələr vardır.

"Ümumi Valideynlər Şurası" valideynlərlə məktəb arasında əlaqə yaradır. Onun əsas vəzifələri məktəb əlaqələrini daha da gücləndirmək, həmçinin şagirdlər üçün ən yaxşı təhsil mühitinin təmin edilməsində məktəbə dəstək olmaqdır. "Ümumi Valideynlər Şurası" valideynlərə təkliflər, ideyalar və təkmilləşdirmələr üçün fəal platforma təqdim edərək və öz növbəsində bu fikir və maraqları məktəb rəhbərliyinə və "Alman Məktəb Şurası"na çatdıraraq məktəb icması daxilində əməkdaşlığı təşviq edir. "Ümumi Valideynlər Şurası" yaranmış problemlərin həlli yollarını müzakirə etmək üçün aylıq iclaslar keçirir. Adətən müzakirə olunan məsələlərə pedaqoji yanaşmalar, baxışlar, məktəbdə təhlükəsizlik, nəqliyyat xidməti və digərləri daxildir.

İspaniya, Fransa, Slovakiya, Ukrayna, Finlandiya, Almaniya, Yaponiya kimi ölkələrdə fəaliyyət göstərən VMA-ların məqsədi valideynlərin ümumi maraqlarını təmin etməkdir:

✦ övladım keyfiyyətli təhsil alsın və cəmiyyətdə müəyyən bir mövqe sahibi olsun;

✦ övladıma xüsusi qayğı və məhəbbətlə yanaşılsın;

✦ təlim-tədris prosesində övladımın gələcəyi ilə bağlı qərarlarda bir valideyn kimi mənimlə hesablaşsınlar, istək və arzularım nəzərə alınsın;

✦ övladımın dünyagörüşü formalaşsın, istedadı inkişaf etdirilsin, asudə vaxtı səmərəli keçsin və s.

Eləcə də "Valideyn-Müəllim Assosiasiyaları" təhsilin inkişafı istiqamətində aşağıdakı fəaliyyətləri təmin edirlər:

- məlumatların nəşri və yayılması: xəbər bülletenləri; illik hesabatlar vermək;

- ailə fəaliyyəti: məktəbdənkənar fəaliyyətlər;

- maraq qrupları; valideyn qrupları ilə birgə təşkil edilən tədbirlər;
- münasibətlərin qurulması fəaliyyətləri: söhbətlər; təlim kursları;
- birləşdirilmiş görüşlər və səfərlər;
- könüllü xarakterli fəaliyyətlər: məktəbin fəaliyyətində iştirak;
- məktəb və ailə arasında əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətlər: valideyn, şagird və müəllimlərin iştirak etdiyi tədbirlər.

# "VALİDEYN-MÜƏLLİM ASSOSİASİYASI"NIN İŞ PROSESİ





## 1.4. "AZƏRBAYCAN GƏNC MÜƏLLİMLƏR ASSOSİASİYASI"NIN FƏALİYYƏTİ

"Azərbaycan Gənc Müəllimlər Assosiasiyası"nın (AGMA) yaradılması haqqında ilkin təşəbbüs 28 noyabr 2018-ci il tarixində Azərbaycan Müəllimlərinin XV Qurultayında irəli sürülüb və AGMA 2020-ci ildə qeydiyyata alınıb.

AGMA-nın məqsəd və mahiyyəti aşağıdakıları əhatə edir:

- istedadlı gənc müəllimləri aşkarlamaq, onların bilik və bacarıqlarını inkişaf etdirmək;
- gənc müəllimlər arasında innovasiya xarakterli əməkdaşlığı inkişaf etdirmək;
- gənc müəllim imicinin formalaşmasına istiqamət vermək;
- gənc müəllimlərin ehtiyaclarını müəyyənləşdirmək;
- pedaqoji istiqamətdə təhsil alan tələbələrdə innovativ inkubasiya imkanlarını təbliğ etmək;
- vahid strukturlaşmış mexanizm və idarəetmə sistemi yaratmaq;
- yerli və beynəlxalq səviyyədə Assosiasiya əlaqələrini və əməkdaşlıq imkanlarını qurmaq.

Hazırda AGMA-da PR (public relations - ictimai əlaqələr) və Kommunikasiya, M&Q Tədqiqatlar, Proqram və təlimlər, həmçinin layihələr üzrə departamentlər fəaliyyət göstərir. Assosiasiya Azərbaycan Respublikası Təhsil Nazirliyi və bir sıra qurumlarla əməkdaşlıq edir.

AGMA-nın strukturu aşağıdakı kimidir:
- İdarə heyətinin sədri;
- Sədr müavinləri;
- Layihələr üzrə menecer;
- Monitorinq və qiymətləndirmə üzrə menecer;
- İctimaiyyətlə əlaqələr üzrə menecer;
- Təlimlər üzrə menecer;
- Koordinatorlar üzrə menecer;
- Könüllülər üzrə menecer;
- Məsləhətçi;
- Mentorlar və psixoloqlar.

Bu istiqamətdə xarici ölkələrdə fəaliyyət göstərən müəllim assosiasiyalarının iş fəaliyyəti də araşdırılmışdır. Aparılan araşdırmalar nəticəsində xarici ölkələrin təhsilə dəstək olan bir sıra icmaları və assosiasiyalarına dair məlumatlar toplanmışdır:

**Kaliforniya Müəllimlər Assosiasiyası** 1863-cü ildə yaranmışdır. Assosiasiyanın məqsədi bütün məktəbləri uşaqlar üçün əlçatan etməkdir.

Kaliforniya Müəllimlər Assosiasiyası dövlət məktəbləri və kolleclərdə fəaliyyət göstərən müəllimlərin hüquqlarının və şagirdlərin maraqlarının müdafiəçisidir. 310 000 üzvü olan bu Assosiasiyaya dövlət məktəblərində və kolleclərində çalışan müəllimlər, məsləhətçilər, psixoloqlar, kitabxanaçılar, təhsilə dəstək mütəxəssisləri daxildir. Assosiasiya hər gün bütün şagirdləri sinif şəraitində tədrisə cəlb edir, onları sabahın liderləri olmaq, özlərinə inam hissinin formalaşması və öz ayaqları üstündə dura bilmək üçün hazırlayır. Kaliforniya Müəllimlər Assosiasiyası Milli Təhsil Assosiasiyasının ən böyük filialıdır.

Kaliforniya Müəllimlər Assosiasiyasının qarşısında duran əsas məqsədləri aşağıdakı kimi qeyd etmək olar:

- müəllimlərin, təhsil işçilərinin sosial vəziyyətlərini, statusunu, şagirdlərin keyfiyyətli təhsil almasını müəyyənləşdirmək;
- şagirdlər, müəllimlər üçün bərabər imkanların və şəraitin təmin olunması;
- ədalətli mühitin yaradılması;
- tədris və öyrənmə şəraitini yaxşılaşdırmaq;
- bütün şagirdlər üçün pulsuz, universal və keyfiyyətli dövlət təhsili işini inkişaf etdirmək;
- bütün uşaqların, gənclərin və böyüklərin insan ləyaqətinin və vətəndaş hüquqlarının müdafiəsini təmin etmək;
- daha ədalətli və demokratik cəmiyyəti təmin etmək;
- şagirdləri, müəllimləri təlim-tədris resursları ilə təmin etmək.

Kaliforniya Müəllimlər Assosiasiyası şagirdlər üçün təhsilin keyfiyyətini və üzvlərinin peşə, şəxsi keyfiyyətini artırmaq üçün nəzərdə tutulmuş proqramları, strategiyaları planlaşdırır və həyata keçirir. Kaliforniya Müəllimlər Assosiasiyasının üzvləri təhsillə bağlı dövlət siyasətinin formalaşmasında böyük rol oynayır. Üzvlərin peşə və karyera inkişafı məsələlərində maraqlarını təmsil edərək onlara iqtisadi imtiyazlar və resurslar proqramı təqdim edir.

Kaliforniya Müəllimlər Assosiasiyası öz üzvlərinin prioritetlərini müəyyənləşdirmək, onları məlumatlandırmaq, ictimaiyyətlə əlaqələrini yaxşılaşdırmaq üçün daxili və xarici kommunikasiya sistemlərini təmin edir.

**Massaçusets Müəllimlər Assosiasiyası** 117.000 üzvü özündə birləşdirir. Üzvlərə Massaçusets ştatının dövlət məktəblərində, kolleclərində və universitetlərində çalışan müəllim-

lər, təhsil işçiləri, peşəkar heyət və təhsilə dəstək mütəxəssis-ləri daxildir.

Massaçusets Müəllimlər Assosiasiyası bütün təhsil işçilərinin iş şəraitini yaxşılaşdırmağa və onların çətinliklə qazanılmış hüquqlarını müdafiə etməyə həsr olunmuş həmkarlar ittifaqıdır. İttifaq şagirdlərin məktəbəqədər təhsildən başlayaraq aspiranturaya qədər təhsil alması üçün optimal şərait yaratmağa və yüksək ixtisaslı mütəxəssislər yetişdirməyə dəstək olur. Milli Təhsil Assosiasiyası, Massaçusets Müəllimlər Assosiasiyası və filiallar üzvlərin fikirlərinin dinlənilməsi, narahatlıqlarının aradan qaldırılması, ehtiyaclarının təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edən yüksək demokratik təşkilatlardır. Bu üçtərəfli əməkdaşlıq Bostonda, Vaşinqtonda fəaliyyət göstərən məktəblərdə prioritetləri və istiqamətləri müəyyən etməkdə söz sahibidir.

**Massaçusets Müəllimlər Assosiasiyası** öz üzvlərinin peşəkar və iqtisadi maraqlarını inkişaf etdirmək üçün kollektiv səlahiyyətlərindən istifadə etməyə kömək edir. MMA insan və vətəndaş hüquqlarına sadiqdir, ömür boyu öyrənmə və innovasiyaların çiçəkləndiyi bir mühitdə keyfiyyətli ictimai təhsilin tərəfdarıdır.

MMA-nın ali təhsil üzrə 117.000-ə yaxın üzvü vardır. Onlar Massaçusets Universitetinin Amherst, Boston və Lowell filiallarında, doqquz dövlət universitetində və 15 ictimai kollecdə fəaliyyət göstərir. Üzvlərin tərkibinə müəllimlər, təhsil işçiləri, inzibatçılar, kitabxanaçılar və yardımçı heyət daxildir.

**Pensilvaniya Təhsil Assosiasiyası** Pensilvaniya ştatında "Müəllimlərin təşkilatı" adı altında 1852-ci ildə qurulmuşdur. Təşkilatın qurulmasında ümumi məqsəd ən yaxşı təcrübələri müəyyənləşdirmək, məlumat mübadiləsi aparmaq və müəllimlik peşəsini inkişaf etdirməkdir. Pensilvaniya Təhsil Assosiasi-

yası 178.000 üzvdən ibarət şagirdlərin, tələbələrin həyatında fərq yaradan təhsil mütəxəssisləri icmasıdır.

PTA-nın üzvlərinə müəllimlər, təhsilə dəstək verən mütəxəssislər - ali təhsil işçiləri, səhiyyə müəssisələrində fəaliyyət göstərən tibb bacıları, təqaüdçü təhsil işçiləri və müəllim olmağa hazırlaşan kollec tələbələri daxildir. Pensilvaniya Təhsil Assosiasiyasının məqsədi:

- peşəkarlığın artırılması;
- şagird-tələbə mərkəzli tədris və öyrənməni təmin etmək;
- kollektiv və bütün şagirdlər-tələbələr üçün bərabər imkanların yaradılması;
- resursların təmini;
- icmalarla tərəfdaşlıq;
- iş yerlərində hörmət, inam yaratmaq və qoruyub saxlamaqdan ibarətdir.

PTA-nın keyfiyyətli təhsil xidmətləri təqdim etməkdə məqsədi bütün şagirdlərin, tələbələrin effektiv öyrənmə mühitlərini təmin etmək və ictimai təhsil siyasətini inkişaf etdirməkdən ibarətdir.

**Milli Təhsil Assosiasiyası** 3 milyondan çox təhsil işçisini, şagirdləri, tələbələri, fəalları, valideynləri əhatə edən üzvdən ibarətdir.

**Milli Təhsil Assosiasiyasının vəzifəsi** bütün şagirdlər, tələbələr üçün ədalətli, bərabər imkanlar yaratmaq, dövrün tələblərinə uyğunlaşdırmaqla daha səmərəli təhsil mühiti və inklüziv cəmiyyət formalaşdırmaqdan ibarətdir.

Milli Təhsil Assosiasiyasının **əsas missiyası** aşağıdakı kimidir:

- təhsil mütəxəssislərini müdafiə etmək;
- hər bir şagirdi, tələbəni gələcək həyat yolunda uğur qazanmağa sövq etmək;

- təhsilin uğurlu təşkilini təmin etmək üçün Assosiasiya üzvlərini birləşdirmək.

Assosiasiyanın fəaliyyətində əsas **məqsəd və vəzifələr** aşağıdakılardır:

- şagird və tələbələrə öz potensialını, müstəqilliyini və xarakterini inkişaf etdirmək üçün keyfiyyətli təhsil almağa imkan yaratmaq;

- hər bir fərdin dəyərinə, ləyaqətinə və bərabərliyinə hörmət və anlayış hissini formalaşdırmaq üçün həyati əhəmiyyət kəsb edən Ədalətli Cəmiyyət qurmaq;

- şagirdlərin, tələbələrin həyatda uğur qazanması üçün təhsil mütəxəssislərinin təcrübəsi və istiqamətləndirilməsi sayəsində peşəkar bacarıqları formalaşdırmaq.

Valideynlər, ailələr, icmalar, digər maraqlı tərəflərlə əməkdaşlıq keyfiyyətli təhsil və şagirdin uğuru üçün vacib olduğundan müəllimlərin birgə fəaliyyəti kollektivlik, peşəkar statusu və təhsilin keyfiyyətini yaxşılaşdırır.

**Milli Təhsil Assosiasiyası** öz missiyasını həyata keçirərkən müəyyən etmişdir: 3,2 milyon üzvün dəstəyi ilə təlim-tədris resurslarının ödənilməsi, tədrisin keyfiyyətinin yaxşılaşdırılması, şagird nailiyyətlərinin artırılması və məktəblərin daha "Təhlükəsiz öyrənmə məkanı"na çevrilməsi təmin olunmuşdur.

Təhsilə dəstək istiqamətində fəaliyyət göstərən bu kimi assosiasiyalar təhsilin inkişafı istiqamətində maarifləndirici rol oynayır. MTA gənc müəllimlərin əməkdaşlığını, yaradıcı fəaliyyətini inkişaf etdirmək üçün təhsil və təlim istiqamətində müxtəlif tədbirlər və layihələr həyata keçirir.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN MƏKTƏBLİLƏRƏ TƏBLİĞİ









# II FƏSİL

# TƏHSİLİN İNKİŞAFINDA MƏKTƏBDAXİLİ FƏALİYYƏT NÖVLƏRİ VƏ FORMALARI

## 2.1. "MƏKTƏB İCMASI"NIN FƏALİYYƏTİ

Müasir cəmiyyətin inkişafı demokratik, sivil qarşılıqlı fəaliyyət normalarına riayət olunmaqla, onun üzvlərinin fəallığının və məsuliyyətinin artması ilə mümkündür. Bu baxımdan cəmiyyət məktəbə, təhsilə öz köməkliyini göstərməlidir.

Təhsilə, məktəbə dəstək məqsədilə bir çox ölkələrdə "Məktəb İcması" adlı inkişaf proqramını həyata keçirən bir qurum da fəaliyyət göstərir. Bu qurum ilk dəfə Avropa və Amerikada məktəb islahatlarında fəaliyyət göstərmişdir. Hal-hazırda bu ölkələrdə cəmiyyətin və məktəbin həyatında aparıcı yer tutur. "Məktəb İcması" ilk baxışdan sadə görünsə də, əslində, o, məktəbin bütün fəaliyyətində əvəzsiz xidmətə malikdir. Bu sahədə tədqiqatlar aparmış alimlər, pedaqoq və psixoloqlar hesab edirlər ki, məktəb icması anlayışı üç mahiyyəti əhatə edir: 1) İcma olaraq məktəb; 2) Cəmiyyətdəki məktəb; 3) Məktəb və icma.

1) Çikaqodakı Peirce məktəbinin direktoru Janice Rosales (1991) öz məktəbində etnik və dil baxımından müxtəlif ailələri təmsil edən şagirdlərin təhsil aldığını qeyd edir. O bildirir ki, məktəb - müəllimlərdən, idarəçilərdən, işçilərdən, şagirdlərdən və şagirdlərin ailələrindən ibarət bir cəmiyyətdir. Bu səbəblə də Janice Rosales öz məktəbini icma işini səmərəli həyata keçirən müəssisə adlandırır.

2) Doug McCullough Janice Rosales (1991) yuxarıda qeyd etdiyi fikiri təsdiqləyərək bildirir ki, "Məktəb İcması" məktəb rəhbərinin güclü liderlik nümayiş etdirdiyi, eyni zamanda müəllimlərin və valideynlərin geniş iştirakını təşviq etdiyi bir qurumdur. Frank Belcastro (1991) isə "Məktəb İcması"nın səmərəli qurulmasında VMA ilə və ya oxşar şəkildə qurulmuş digər təşkilatlarla əməkdaşlıq etməyi mühüm hesab edir. O, bu maraqlı tərəfləri məktəbdə icma quruculuğu səylərində vasitəçi kimi xidmət etməyə çağırır. Məktəb icması haqqında fikir bildirən pedaqoqlar ***məktəbi*** özləri üçün bir cəmiyyət kimi görürlər.

Yuxarıda qeyd olunan pedaqoqlardan fərqli olaraq Paul Baker, Deborah Curtis və Wayne Benenson (1991) icma anlayışının üçüncü mahiyyətini əsas götürürlər. Belə ki, onlar məktəbə daha geniş icma kontekstində baxırdılar. Onlar ilk növbədə məktəb direktorları və müəllimləri peşəkar işçilərlə əməkdaşlığa sövq edirlər.

Eyni zamanda təklif edirlər ki, icma digər tərəfdaşlarla, bütövlükdə cəmiyyəti, valideynləri, yerli iş adamlarını və təşkilat nümayəndələrini əhatə edə bilər. Bu fikri Karen Braun və Nensi Feyl Çavkin (1991) dəstəkləyərək bildirirlər ki, uşaqlara kömək edən dəstək şəbəkələri yaratmaq üçün ailələri və məktəbləri biznes və sosial agentliklərlə əməkdaşlığa sövq etmək lazımdır. Bu əməkdaşlıq "cəmiyyət" adlanır.

Bütün bu deyilənləri ümumiləşdirərək Samuel Peng (1991) məktəbi və ictimaiyyəti daha böyük bir cəmiyyət daxilində iki ayrı qurum kimi görür. Belə ki, məktəb icmasını daha çox təhsil icmasına çevirərək, bu tərifi genişləndirməklə onlar arasında körpü yaratmağın mümkün olduğunu qeyd edir.

Beləliklə, "Məktəb icması" - yeni müasir məktəb modelidir. Burada həmfikir insanlar birgə əməkdaşlıq prosesində öy-

rətmə və öyrənmənin keyfiyyətinin artırılmasına, təhsilin inkişafına dəstək olurlar. "Məktəb İcması"nın ən mühüm xarakterik xüsusiyyəti tədris prosesinin bütün iştirakçıları - məktəb rəhbərliyi, müəllimlər, şagirdlər və valideynlər arasında bərabərhüquqlu qarşılıqlı əlaqə qurmaq, onların "icma" qanunlarına uyğun fəaliyyət göstərmək istəyini təmin etməkdir. Bunun üçün isə böyük maliyyə xərcləri tələb olunmur.

**"Məktəb İcması"nın proqramının məqsədi:**

- effektiv ikitərəfli informasiya və qarşılıqlı anlaşma, məktəblə icma arasında münasibətlərin birgə inkişafı üçün mühüm amillərin dəstəklənməsi;
- icma məktəblərinin işi haqqında ictimaiyyətin məlumatlandırılması;
- valideynlər və müəllimləri birləşdirən tərəfdaşlıq konsepsiyasının təkmilləşdirilməsi;
- təhsil prosesində demokratiyanın vacibliyinə dair məlumatlılığın artırılması;
- cəmiyyətdə məktəbə inam yaratmaq;
- şagirdlər üçün təhsil imkanlarının yaradılmasında ev, məktəb və icmanın inteqrasiyası;
- məktəblə icmanın məqsədləri və işi ilə bağlı anlaşılmazlıqların aradan qaldırılması;
- məktəb və icma arasında davamlı əlaqələrin qurulması;
- məktəbi humanistləşdirmək.

**"Məktəb İcması" aşağıdakı prinsipləri** özündə ehtiva edir:

- demokratiklik;
- kollegiallıq;
- səmərəlilik;
- liderlik;
- qarşılıqlı əməkdaşlıq.

Bu prinsiplər "Məktəb İcması"nın genişlənməsi və məqsədəuyğun fəaliyyəti üçün maraqlı tərəflərin əməkdaşlığa cəlb olunmasına xidmət edir. Əməkdaşlıq şəffaf və demokratik əsaslara xidmət etməli, nəticələrin obyektiv qiymətləndirilməsi, görüləcək işlərin aydınlığı və konkretliyi gözlənilməlidir.

**"Məktəb İcması" üzvlərinin fəaliyyəti nədən ibarətdir?**

- "Məktəb İcması"nın üzvləri məktəblilərin intellektual səviyyəsini artırmaq üçün mühitin təmin edilməsinə dəstək verir və cəmiyyətin bütün üzvlərinin təmsil olunduğu sağlam sosial mühit yaradır. Məktəbin rifahına sərmayə qoyan dövlət müəssisələri, özəl şirkətlər, fərdlər, imkanlı şəxslər və xeyriyyə təşkilatları da məktəb icmasının bir hissəsi sayıla bilər.

**"Məktəb İcması" şagird nailiyyətinə və şəxsiyyət kimi formalaşmasına necə təsir edir?**

- Təhsil və tərbiyə prosesi uşaqlara bilik, bacarıq, vərdişləri, davranış, etik normaları, milli-mənəvi dəyərləri, istək və fəaliyyət modellərini, qazanılmış təcrübələrin tətbiqi mexanizmlərini öyrətməklə onları müstəqil qərar qəbul etməyə hazırlayır. "Məktəb İcması" bu istiqamətdə demokratik məktəb mühitinin yaradılması modelinin təşkilində və həyata keçirilməsində maraqlı sosial və fərdi qruplarla əməkdaşlıq edir.

**Məktəb və "Məktəb İcması"nın birgə fəaliyyəti necə təşkil olunmalıdır?**

- Hər bir fəaliyyətin daha səmərəli təşkili və nailiyyətlər qazanması üçün bir sıra vacib məqamlar var. Fəaliyyətin effektivliyinə və davamlılığına təsir edən başlıca məqam prosesdə iştirak edən tərəflərin qarşılıqlı inamıdır. Bunun əsasında bütün milli-mənəvi dəyərləri nümunə götürərək etik və əxlaqi

ölçülər çərçivəsində əməkdaşlıq mühüm amildir. "Məktəb İcması"nın fəaliyyətində məqsəd hər bir nümayəndənin ümumi işə cəlb olunmasını təmin etmək, onları problemin həllinə təşviq etmək, qarşılıqlı əməkdaşlıq, ünsiyyət, nailiyyətlərin dəyərləndirilməsi (müzakirələr, mülahizələr, dəyirmi masa) və qiymətləndirilməsi prosesinin iştirakçısına çevirməkdir. Həmçinin valideynlərin və ictimaiyyət nümayəndələrinin icmanın işinə töhfə verməsi üçün birgə əməkdaşlığı möhkəmləndirmək, vəzifə və öhdəliklər üzrə məsuliyyət daşımaq, daxili nizam-intizamı qorumaq kimi xüsusiyyətlərin aşılanmasıdır. Bunun üçün əlverişli mühit təmin olunmalıdır.

**Məktəb rəhbərlərinin icmanın fəaliyyətinə dəstəyi.**

İctimai fəaliyyətin, İcmaya lazımi dəstəyin göstərilməsi, icma üzvlərinin fəaliyyətinin müntəzəm izlənilməsi, aylıq və illik hesabatların dinlənilməsi, müvafiq tapşırıqların verilməsi və şəraitin təmin olunması əsas şərtlərdəndir.

**"Məktəb İcması"nın fəaliyyətində müəllimlərin rolu.**

Müəllimlər məktəbdə oxuyan bütün şagirdlər üçün məsuliyyət daşıyırlar və bu sahədə istiqamətverici işlər görə bilərlər. "Məktəb İcması" da şagirdlərə təhsil məqsədlərinə çatmaqda yol göstərir, mentor kimi çıxış edir, şagirdlərin hərtərəfli inkişafı üçün dəstəkləyici mühit təmin edir. Beləliklə, müəllimlərlə icma üzvlərinin fəaliyyəti arasında eyni məqsədə uyğun əməkdaşlıq mövcuddur.

**"Məktəb İcması"nın fəaliyyətində valideynlərin rolu.**

"Məktəb icması"nın fəaliyyətində valideynlərin xüsusi yeri var. Valideynlər sağlam ailə mühiti yaratmaqla öz övladlarına qayğı göstərir, lazımi səviyyədə təhsil almaları üçün şərait yaradır, məktəbin və "Məktəb icması"nın fəaliyyətində fəal iştirak edirlər.

**"Məktəb İcması"nın fəaliyyətində şagirdlərin rolu.**

Məktəb və icmanın daxili nizam-intizamını gözləməli, öhdəliklərini aydın dərk etməli, icma üzvləri ilə əlaqə saxlamalı, çətinlik çəkdiyi hər hansı bir vəziyyətdə icmanın dəstəyindən yararlanmalıdırlar. Həmçinin şagird kollektivi öz aralarında icmanın fəaliyyəti ilə əlaqəli müzakirələr aparmalıdır.

**"Məktəb İcması"nın tərkibinə aşağıdakılar daxildir:**

**1. Məktəbin ictimaiyyəti**

**a)** daxili ictimaiyyət:

- şagirdlər;
- müəllim heyəti;
- yardımçı heyət;
- təhsil şurası;

**b)** xarici ictimaiyyət:

- valideynlər;
- özəl şirkətlər və nümayəndələri;
- dövlət qurumları;
- qeyri-hökumət təşkilatları;

Birgə fəaliyyət nəticəsində məktəbin fəaliyyəti planlaşdırılır, valideynlərin və ictimaiyyətin fəal iştirakı təmin olunur, şagirdlərin təlimdə inkişafı üçün onların ehtiyacları və istəkləri nəzərə alınır, təlim resursları müəyyənləşdirilir.

Bütün bunlarla yanaşı, Məktəb Fəaliyyət Planlarını hazırlamaq və həyata keçirmək üçün məktəb işçiləri ilə əməkdaşlıq düzgün təşkil olunur, hər il ailələr və icma üzvlərinə icmanın fəaliyyət və əldə etdiyi nailiyyətlər haqqında məlumat verilir. Maliyyə hesabatlılığı tam şəffaf və obyektivlik əsasında təqdim olunur.

**Rəhbərlər, müəllimlər, şagirdlər, valideynlər və maraqlı tərəflər ilə münasibətlər necə qurulmalıdır?**

- məktəblərdə valideynlər və icma üzvlərinin həm qeyri-rəsmi, həm də rəsmi görüşlərinin keçirilməsi, müzakirələrin təşkili, birgə qərarların qəbulu;

- səmərəli və davamlı nəticələr əldə etmək üçün məktəb və cəmiyyət arasındakı tərəfdaşlığın təmin olunması;

- qarşılıqlı əməkdaşlığın müəyyən edilmiş ehtiyaclar və prioritetlər əsasında həyata keçirilməsi;

-icmanın fəaliyyətinə dair üzvlərin məlumatlandırılması;

- məktəbin və icmanın fəaliyyətində əlaqələndirici halqanın təmin olunması.

**"Məktəb İcması" Şurası aşağıdakı tövsiyələri verə bilər:**

- təhsil siyasəti ilə bağlı;
- proqramların hazırlanması üzrə;
- məktəbin idarə olunması istiqamətində;
- məktəbdaxili nizam-intizam qaydaları;
- müəllim tərəfindən təhsil xidmətlərinin göstərilməsi və s.
- valideynlərin fəal iştirakı.

Bütün bu qeyd edilən məqsəd və vəzifələrin layiqincə yerinə yetirilməsində məktəb kollektivinin, təşkilatların, aidiyyəti qurumları təmsil edən nümayəndələrin birgə əməkdaşlığı mühüm amildir. Bu əməkdaşlığın təmin olunmasında sağlam pedaqoji və psixoloji mühitin yaradılması və görülən işin obyektiv, şəffaf qiymətləndirilməsi "Məktəb İcması"nın qarşısında duran başlıca strategiyadır.

# AĞRILARIMIZ, ACILARIMIZ, QƏHRƏMANLARIMIZ










## 2.2. "MƏKTƏBLİNİN DOSTU" LAYİHƏSİNİN MƏQSƏDİ

Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə 2016-cı ildən etibarən ölkə məktəblərində təhsilin idarəedilməsinə dəstək məqsədilə ortaya çıxan problemlərin həlli istiqamətində bir sıra işlər həyata keçirilir. Bu işlər sırasında valideynləri məktəb həyatının bir hissəsinə çevirmək, onların rəhbərlik, müəllim, eləcə də övladları ilə daha yaxından ünsiyyət qurmaq, müəllim-şagird qarşılıqlı əlaqələrini möhkəmləndirmək məqsədilə "Məktəblinin dostu" layihəsi tətbiq olunur. Fəaliyyətinə 30 ümumtəhsil müəssisəsi ilə başlayan "Məktəblinin dostu" layihəsinin keçdiyi uğurlu yolun nəticəsidir ki, bu gün artıq 226 (2021-2022-ci illərdə) ümumtəhsil müəssisəsində işini layiqincə davam etdirir. Hal-hazırda uğurla həyata keçirilən bu layihə Bakı şəhəri üzrə 186 tam orta məktəb, 2 gimnaziya, 2 internat və 2 idman məktəbi, o cümlədən Sumqayıtda 20, Abşeronda 20 ümumtəhsil müəssisəsini əhatə edir. 400 minə yaxın şagirdi əhatə edən layihə üzrə hazırda 400 əməkdaş çalışır və layihənin davamlı olaraq digər təhsil müəssisələrində də tətbiqi genişləndirilir. Dünya ölkələrindən ABŞ, Fransa, Çexiya, Türkiyə və Gürcüstanda da "Şagirdlərin dostu" adı altında həyata keçirilən bu layihə tamamilə eyni mahiyyəti ifadə edir. Belə ki, qeyd olunan layihə bir sıra məqsədləri özündə ehtiva edir. Bu məqsədlər sırasına:

- məktəb-şagird-valideyn əlaqələrinin etibar, inam müstəvisində düzgün qurulmasını təmin etmək;
- şagirdlərin, valideynlərin məktəb mühitində qarşılaşdıqları çətinlikləri çəkinmədən məktəblinin dostuna bildirmək imkanına malik olmaq;
- şagirdlərin təhsil almalarına dəstək olmaqla onları məktəbə həvəslə gəlib-getməyə sövq etmək;
- yeni bilikləri mənimsəməyə can atmağa şərait yaradacaq sağlam, həvəsləndirici mühit yaratmaq və s. daxildir.

Bu qeyd olunan məqsədlərlə yanaşı, "Məktəblinin dostu"nun qarşısında bir sıra vəzifələr də qoyulur:

1. Təhsilverənlərə və təhsilalanlara sağlam, təhlükəsiz, həvəsləndirici mühit yaratmaq;
2. İlkin tibbi və psixoloji yardım göstərmək;
3. Məktəbin təhlükəsizliyini təmin etmək;
4. Davamlı olaraq təhsilalan, təhsilverən və valideyn arasında körpü rolunu oynayaraq problemi həll etməyə çalışmaq, onları maarifləndirmək;
5. Təhsil müəssisəsinin kollektivi və məktəb rəhbərləri ilə mütəmadi olaraq maarifləndirmə və diaqnostik işləri təşkil etmək;
6. Təhsilalanlarla münasibətdə onların fərdi və yaş xüsusiyyətlərini nəzərə almaq;
7. Təhsilalanların bilik və bacarıqlarının təmin olunması, onlarda özünütərbiyə, özünüinkişaf, özünüqiymətləndirmə bacarıqlarının formalaşmasında iştirak etmək və s.

Bu bir həqiqətdir ki, "Məktəblinin dostu" şagirdlər arasında ünsiyyət problemlərini tənzimləyir, məktəb mühitinin daha əlverişli olmasına şərait yaradır. Bu da təhsilalanlar arasında tolerantlıq, dostluq münasibətlərinin yaranmasında, möhkəmlənməsində, habelə onlar arasında ünsiyyət bacarıqlarının inkişa-

fında xüsusi rol oynayır. Belə ki, məktəb mühitində effektiv ünsiyyətin qurulması şagirdlərin sağlam mühitdə səmərəli öyrənməsini təmin etmə baxımından vacibdir. Məktəblərdə aparılan müşahidələrə nəzər saldıqda görürük ki, şagirdlərlə "Məktəblinin dostu" nümayəndələri arasında etibar, inam əsasında dostluq münasibətləri formalaşmışdır. Müşahidələr göstərir ki, "Məktəblinin dostu"nun fəaliyyət göstərdiyi məktəblərdə şagirdlərin məktəb həyatında fəal iştirakı onların dərsə həvəslərinin artmasına, istedadlarının aşkarlanmasına, məktəbdə mehriban ab-havanın yaranmasına səbəb olur. Bunlara dayanaraq "Məktəblinin dostu"nun həqiqətən də məktəblilərin "dostu" olduqlarını deyə bilərik.

Bundan əlavə, "Məktəblinin dostu" layihəsində çalışan şəxslərin xüsusi psixoloji hazırlıq keçmələri bu layihənin ən yaxşı tərəfidir. Belə ki, bu, müəllim və şagirdlərin ehtiyaclarına layiqincə cavab verməsi üçün mühüm amildir. Şagirdlərin uzun saatlar məktəbdə vaxt keçirdiyini nəzərə alsaq onların psixoloji problemlərinin aşkara çıxmasında məktəb psixoloqları ilə birgə bu şəxslərin də işi danılmazdır. O cümlədən layihənin psixoloji yardım mərkəzi də fəaliyyət göstərir. Bu mərkəzlər valideynlərin istəyi, nəzarəti altında şagirdlərlə fərdi və qrup halında danışıqlar, seminarlar keçirməklə onların sıxıntılarını öyrənir, eyni zamanda gələcək peşə seçimlərində onlara yardım göstərməyə çalışırlar.

Həmçinin, "Məktəblinin dostu" layihəsi əsasında məktəblərdə həvəsləndirici viktorina, yarışlar təşkil edilir ki, bu yarışlar məktəblilərin fəaliyyətini stimullaşdırır. Bundan savayı, "Məktəblinin dostu" layihəsi çərçivəsində məktəblilərin səmərəli vaxt keçirməsini, yay tətillərini əylənərək öyrənməklə keçirmələri üçün yay məktəbləri təşkil olunur. Yay məktəbləri çərçivəsində məktəblilər həmyaşıdları ilə ünsiyyətə girərək

əməkdaşlıq çərçivəsində diskussiyalarda, yarışlarda, interaktiv müsabiqələrdə daha fəal iştirak edir və həmyaşıdları ilə fikir mübadiləsi qurmaqla öz biliklərini təkmilləşdirir, yeni biliklərə yiyələnirlər.

"Məktəblinin dostu" layihəsi müəllim, məktəb rəhbəri, istərsə də şagird və valideynlərin maarifləndirilməsi üçün bir sıra aktual mövzularda təlimlər təşkil edir:

- "Fövqəladə hallarda davranış qaydaları";
- "Gələcəyini qur: Məktəblərdə Karyeranın planlaşdırılması və İnkişafı";
- "Sosial şəbəkələrdən faydalı istifadə";
- "Məktəb, ailə, cəmiyyət arasında səmərəli əməkdaşlıq";
- "Valideyndən öyrənək";
- "Pirotexniki vasitələr və onların zərərləri";
- "Özünümüdafiə və şəxsi təhlükəsizlik".

"Məktəblinin dostu" layihəsi qısa müddət ərzində tətbiq edilməsinə baxmayaraq, məktəblərdə kifayət qədər aktual problemlərin, müəllim-şagird, müəllim-valideyn, müəllim-rəhbər arasındakı ünsiyyət və nizam-intizam problemlərinin aradan qaldırılmasına nail olmuşdur. Şagirdlərin səmərəli öyrənməsini təmin edən sağlam, təhlükəsiz, onların ehtiyaclarına cavab verəcək mühit yaratmaqla məktəb, müəllim və şagird üçlüyünün etimadını doğrultmuşdur.

Məhz bu səbəbdən də layihənin respublika və bölgələrdəki bütün ümumtəhsil müəssisələrində təşkilini təmin etmək gələcək nəsillərin özgüvənli, bilikli, XXI əsr bacarıqlarına cavab verəcək tərzdə yetişməsi üçün əsas vasitələrdəndir.

# MƏKTƏBLİLƏRİN İNKİŞAFINDA İNTELLEKTUAL OYUNLAR





## 2.3. "KİÇİK AKADEMİYA"LARIN FƏALİYYƏTİ

Hər bir uşaq təkcə onun valideynlərinin deyil, ümumilikdə cəmiyyətin ən müqəddəs varlığıdır. Hər bir şagird təkrarolunmazdır və hər birinin özünəməxsusluğu vardır. Bəziləri humanitar, bəziləri texniki, bəziləri isə sosial-təbiət sahəsində xüsusi qabiliyyətə malikdirlər. Bəziləri rəngarəng şəkil çəkir, digərlərində isə gözəl musiqi duyumu var. Əlbəttə, onların hansı istiqamətdə qabiliyyətli olduqlarını müəyyənləşdirmək bəzən mütəxəssislərin üzərinə düşür. Şagirdləri bacarıq və istedadlarına görə düzgün istiqamətləndirmək lazımdır. Bu baxımdan xüsusi istedada malik olan şagirdlər vaxtında aşkarlanmalıdır.

Böyüməkdə olan uşaqların istedadlarının aşkarlanması və inkişaf etdirilməsi üçün 2006-cı il 17 aprel tarixində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq edilmişdir. Proqramda irəli sürülən başlıca məqsədlər bunlardır:

- istedadlı uşaq və gənclərin aşkara çıxarılmasının optimal yollarını müəyyənləşdirmək;
- istedadlı uşaq və gənclərlə iş sahəsində müasir tələblərə uyğun səmərəli fəaliyyət mexanizmi yaratmaq;
- həmin uşaq və gənclərlə işin təkmilləşdirilməsi istiqamətində fundamental tədqiqatların aparılmasını təmin etmək;

- istedadlı uşaq və gənclərlə iş sahəsində xarici ölkələrdə mövcud olan qabaqcıl təcrübəni öyrənib tətbiq etmək.

Dövlət proqramında qeyd olunan bu məqsəd və vəzifələrdən irəli gələrək məktəblərimizdə xüsusi istedada malik şagirdləri aşkara çıxarmaq, onlarda sadə, ilkin tədqiqatçılıq bacarığı və vərdişləri formalaşdırmaq, eyni zamanda fənn olimpiadalarına hazırlamaq məqsədilə ümumtəhsil məktəblərinin nəzdində Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli sərəncamı ilə "Kiçik Akademiya"ların təşkil olunması nəzərdə tutuldu.

"Kiçik Akademiya" (bundan sonra KA) məktəb, rayon (şəhər) və respublika səviyyəsində təşkil olunur.

KA istedadlı şagirdlərin üzvlüyü əsasında ümumtəhsil məktəblərində təsis olunur. KA-nın məqsədi elmi-tədqiqat fəaliyyətinə meylli olan istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, yaradıcılıq potensiallarını nəzərə alaraq onları peşə istiqamətlərinə yönləndirməkdir. Burada şagirdlərə elmi məruzə ilə çıxış etmək, referatlar hazırlamaq, birgə elmi layihələrdə iştirak etmək və s. kimi biliklər və bacarıqlar aşılanır.

**Kiçik Akademiyanın strukturu**

**Prezident, Koordinasiya şurası, İnformasiya-resurs mərkəzi**

↓

**Elmi-tədqiqat formaları**

**Müəllim tədqiqat işləri, Şagird tədqiqat işləri, Beynəlxalq münasibətlər**

↓

**Bilik və bacarıqlar üzrə fəaliyyət istiqamətləri**

**Təbiət elmləri, Texniki elmlər, Humanitar elmlər**

1. Respublika Kiçik Akademiyası AMEA və Təhsil Nazirliyi tərəfindən idarə olunur və aşağıdakı funksiyaları yerinə yetirir:

- yaradıcılığa, elmi-tədqiqat fəaliyyətinə meyl və maraq göstərən istedadlı uşaq və gənclərlə aparılan işlərin perspektiv istiqamətlərinin müəyyənləşdirilməsində yaxından iştirak etmək;
- Rayon (şəhər) Kiçik Akademiyalarının fəaliyyətini tənzimləmək və nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsində onlara elmi-metodik köməklik göstərmək;
- Respublika səviyyəsində olimpiadalar, müsabiqə və yarışlar, elmi-təcrübi konfrans və seminarlar, "Dəyirmi masa"lar və digər görüşləri təşkil etmək;
- təcrübəli mütəxəssisləri, istedadlı uşaq və gəncləri işə cəlb etmək, xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdlərin elmi himayəyə götürülməsinə nail olmaq;
- istedadlı uşaq və gənclərin beynəlxalq olimpiadalara və müsabiqələrə hazırlığını təmin etmək məqsədilə təşkilati tədbirlər həyata keçirmək;
- istedadlı uşaq və gənclərin seçilmiş elmi-tədqiqat işlərindən ibarət toplu və bukletlərin çapı ilə bağlı müvafiq tədbirlər həyata keçirmək.

2. Rayon (şəhər) səviyyəsində yaradılan KA isə Rayon (şəhər) Kiçik Akademiyası (bundan sonra R(Ş)KA) adlandırılır. RKA ilə yanaşı, Elmi Himayəçilik Şurası da (bundan sonra EHŞ) təsis olunur. RKA-ya rəhbərlik yerli təhsil idarəetmə orqanları tərəfindən həyata keçirilir. EHŞ-nin tərkibi isə müəllim, alim və mütəxəssislərdən ibarət olur. RKA-nın fəaliyyəti aşağıdakılardan ibarətdir:

- ümumrayon üzrə seminar, konfrans, klub və lektoriyaların, yay təlim-istirahət düşərgələrinin təşkili;

- tədbirlərə mütəxəssislərin, tanınmış şəxsiyyətlərin dəvəti;

- respublika və beynəlxalq miqyaslı tədbirlərdə iştirak üçün komandaların formalaşdırılması;

- işgüzar görüşlərin, təcrübə mübadilələrinin təşkil edilməsi.

RKA-lar öz fəaliyyətləri ilə respublika KA-sı qarşısında cavabdehlik daşıyır və ona hesabat verir.

3. KA məktəb səviyyəsində yaradıldıqda MKA (Məktəb Kiçik Akademiyası) adlanır və məktəb rəhbərləri tərəfindən idarə olunur. MKA-nın tərkibində Şagird Elmi Cəmiyyəti (bundan sonra ŞEC) yaradılır və bu, MKA-nın strukturunda əsas qurum hesab edilir. MKA çərçivəsində:

- şagirdlər fərdi və kollektiv şəkildə elmi araşdırmalar aparır, məruzə, tezis, referat və hesabatlar hazırlayırlar;

- konfrans və seminarlarda şagirdlər öz elmi araşdırmaları ilə çıxışlar edir və MKA tərəfindən rəğbətləndirmə məqsədilə müvafiq təltiflər alırlar.

MKA-lar görülmüş işlərə dair Rayon (şəhər) Kiçik Akademiyasına hesabatlar verirlər.

Hər bir KA-nın üzvləri açıq səsvermə yolu ilə seçilir. Məktəb pedaqoji şurasının, rayon təhsil şöbəsinin, təhsil şurasının, Təhsil Nazirliyinin müvafiq qərarı ilə də ləğv edilir.

Göründüyü kimi, KA-lar müəyyən mənada şagird istedadının müəyyənləşdirilməsində və inkişafında heç də az rol oynamır. İstedadlı uşaqları aşkara çıxarıb özündə birləşdirən, onların maraqlarına, bacarıqlarına, ehtiyaclarına uyğun təlim verən Kiçik Akademiyaların ölkələr üzrə beynəlxalq fəaliyyəti də araşdırılmışdır.

**Sinqapurda** istedadlı uşaqlar üçün Təhsil Proqramı ilk dəfə 1984-cü ildə Təhsil Nazirliyinin (TN) Yeni Təhsil Sistemi

çərçivəsində həyata keçirilib. Bu isə təhsil siyasətinə uyğun olaraq xüsusi istedadı, bacarığı və marağı olan şagirdlərin daha əlverişli mühitdə, səmərəli təhsil alması üçün yaradılıb.

Bu, Sinqapurda yüksək intellektə malik şagirdləri hər tədris ilində müəyyən etmək üçün nəzərdə tutulmuş akademik təhsil proqramıdır. Şagirdlərin Akademik Təhsil Proqramına daxil olması şifahi testlər, riyazi biliklərinin qiymətləndirilməsi kimi iki mərhələdə həyata keçirilir. Bu mərhələləri müvəffəqiyyətlə tamamlayan şagirdlər "İstedadlı uşaqlar üçün Təhsil Proqramı" üzrə tədris aparılan məktəblərə köçürülürlər. "İstedadlı Uşaqlar Üçün Təhsil Proqramı" dərsləri şagirdlərin öyrənmə qabiliyyətinə uyğun olaraq təşkil olunan kurikulum fənlərini daha dərindən və ətraflı əhatə edir.

Bu proqramın əhatə dairəsi genişlənərək 2016-cı tədris ilində 9 ibtidai məktəb olmaqla tətbiqinə başlanıldı.

**Kanadanın** Alberta əyalətində "Kalqari Təhsil Şurası"nın müxtəlif ibtidai və orta məktəblərin 4-12-ci siniflərini əhatə edən "İstedadlı Şagirdlərin Təhsil Proqramı" var. Bu proqram xüsusi siniflərdə tədris yaşına və bacarığına uyğun istedadlı şagirdlərin tələbatına cavab verən kurikulumlar əsasında həyata keçirilir.

**Honq-Konq.** Təhsil Komissiyasının 1990-cı ildəki Hesabatına (No.4 [47]) əsasən qeyd edə bilərik ki, Honq-Konqda istedadlı şagirdlərin təhsili ilə bağlı məktəblərə xüsusi fəaliyyət proqramları tövsiyə edilmişdir.

Bu ölkədə "İstedadlı Şagirdlər üçün Təhsil Proqramı"na cəlb olunan şagirdlər aşağıda qeyd olunan keyfiyyətlər üzrə seçilir:

- yüksək intellekt səviyyəsi;
- fənn sahəsində xüsusi akademik qabiliyyəti;
- yaradıcı düşüncə, təxəyyül və təfəkkürə malik olması;

- vizual və ifaçılıq istedadı;
- liderlik qabiliyyəti;
- psixomotor qabiliyyəti.

Bu tədris proqramının missiyası istedadlı şagirdlərin təhsilini sistemli, strateji şəkildə araşdırmaq və inkişaf etdirmək, müvafiq səviyyələrdə təhsil almaq imkanları yaratmaqdır.

Honq-Konqda "İstedadlı Şagirdlər üçün Təhsil Proqramı"nın əsas prinsipi bütün məktəblərdə xüsusi istedada, bacarığa malik şagirdlərin yetişməsinə şərait və stimullaşdırıcı öyrənmə imkanları yaratmaqdır.

Eyni zamanda hər bir məktəb istedadlı uşaqların sosial, emosional, eləcə də intellektual ehtiyaclarının ödənilməsini təmin etməlidir.

Qeyd edilən bu prinsiplərə əsasən, Honq-Konqda 2000-ci ildə üç pilləli istedadlı təhsil mərhələsi qəbul edilmişdir. 1-ci və 2-ci səviyyələr məktəb əsaslı, yəni məktəb çərçivəsində fəaliyyət göstərir, 3-cü səviyyə isə "Honq-Konq İstedadlı Təhsil Akademiyası"nın fəaliyyətinə daxildir. 1-ci səviyyəyə qabiliyyətdən asılı olmayaraq bütün məktəblərdə yüksək səviyyəli düşünmə, yaradıcılıq və şəxsi-sosial bacarıqları olan, 2-ci səviyyəyə yaradıcılıq, liderlik, fənlər üzrə xüsusi istedadı olan, "Honq-Konq İstedadlı Təhsil Akademiyası" və Honq-Konqdakı digər universitetlər kimi ali təhsil müəssisələri, təhsil təşkilatları orqanlarının fəaliyyətinə uyğun şagirdlər daxildir. 3-cü səviyyəyə isə ən yaxşı bacarığa və fitri istedada malik olan şagirdlər seçilir və əsas iş Proqramı onlarla əhatə edilir.

**Türkiyədə** "İstedadlı Uşaqların Təhsilini Araşdırma və Təcrübə Mərkəzi" Anadolu Universiteti və TÜBİTAK-ın dəstəyi ilə 2007-ci ildə təsis edilmişdir. Mərkəzin əsas məqsədi:

- istedad, yaradıcılıq istiqaməti üzərində araşdırmalar aparmaq;

- zəka, təfəkkür göstəriciləri ilə istedadlı şagirdləri aşkara çıxarmaq;

- şagirdlərin intellektual potensiallarının ən üst səviyyəyə çatmasına kömək edərək fərqli təhsil verməkdir.

Təhsil Nazirliyi tərəfindən idarə olunan 200-dən çox elm və incəsənət mərkəzi ölkədə istedadlı şagirdlər üçün xüsusi təhsil təklif edir.

**Amerika Birləşmiş Ştatları.** Birləşmiş Ştatlarda hər bir ştatın Təhsil Departamenti istedadlı şagirdlərin ehtiyaclarının dövlət tərəfindən təmin edilib-edilməyəcəyini müəyyən edir. Xüsusi təhsildən fərqli olaraq istedadlı şagirdlər üçün təhsil federal səviyyədə tənzimlənir, ABŞ Təhsil Departamenti tərəfindən tövsiyələr verilir.

Xidmətlərin maliyyələşdirilməsi hər ştata görə fərqlənir və şagirdlərin təhsili də ştatların büdcəsindən asılı olaraq dəyişir.

# MÜƏLLİM-ŞAGİRD MÜHİTİ VƏ SEVGİSİ









## 2.4. "FƏNN DƏRNƏKLƏRİ VƏ DƏRSDƏNKƏNAR MƏŞĞƏLƏLƏR"İN KEÇİRİLMƏSİ FORMALARI

Sinifdənxaric təlim-tərbiyə işləri də təlimin və tərbiyə işlərinin keyfiyyətcə yüksəlməsində xüsusi əhəmiyyətə malikdir. Sinifdənxaric tədbirlərə dərsdənkənar məşğələlər, fənn dərnəkləri də daxildir. Sinifdənxaric tədbirlər təbiət qoynunda deyil, yaşadığı rayonun hər hansı bir istehsalat sahəsinə, muzey və kitabxanalarına, qədim tarixi, mədəni abidələrə ekskursiyalar, yaşlı nəslin nümayəndələri ilə görüşlər keçirməklə təşkil edilir. Şagirdlər sinifdənxaric tədbirlər vasitəsilə bir sıra həyati bacarıqlara yiyələnirlər. Belə tədbirlər şagirdlərdə ruh yüksəkliyi yaradır, həmçinin ətraf mühitə maraqlarını artırır. Təbiətin qoynunda onunla birbaşa ünsiyyətdə olurlar. Bu da təbiətlə insanların vəhdət təşkil etdiyinin bariz nümunəsidir. Buna görə də məktəblərdə sinifdənxaric tədbirlərə xüsusi diqqət yetirilməlidir.

**Dərsdənkənar məşğələlər** təlimin diferensiallaşdırılmasına xidmət edir. Təlimin diferensiallaşdırılması isə şagirdlərin fərdi imkanlarının nəzərə alınmasıdır. Təlimin diferensiallaşdırılmasına xidmət edən dərsdənkənar məşğələlər şagirdlərin biliyini genişləndirir, onları yaradıcılığa, axtarışa, elmi-tədqiqata istiqamətləndirir. Hətta dərsdənkənar məşğələ şagirdlərin bacarıqlarını, maraqlarını artırmaqla yanaşı, konkret bir fənnə idrak marağını formalaşdırır, gələcək peşə seçiminə də yardımçı olur. Dərsdənkənar məşğələlər ayrı-ayrı fənn bölmələrini genişləndirmək məqsədi ilə xüsusi proqramlar üzrə keçirilir.

Belə ki, dərsdənkənar məşğələlər sayəsində şagirdlərin fərdi qabiliyyətləri də üzə çıxır. Bir cəhətə xüsusi diqqət yetirmək lazımdır ki, şagirdlər dərsdənkənar məşğələlərdə əldə

etdikləri bilikləri təcrübədə tətbiq etməyi və iş prosesində həyata keçirməyi bacarsınlar.

Sinifdənxaric tədbirlərdən biri də fənn dərnəkləridir. Fəaliyyət istiqamətinə, məzmununa, iş tərzinə, keçirilmə vaxtına görə fənn dərnəkləri müxtəlifdir. Fənn dərnəkləri ayrı-ayrı fənlər üzrə təşkil olunur (humanitar, təbiət və s.). Müasir dövrdə və tarixən təhsilin qarşısında duran çox mühüm vəzifə şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi olmuşdur. Fənn dərnəkləri məhz bu istiqamətə, yəni şagirdlərin maraq və meyllərinə uyğun istiqamətə yönəlmişdir. Təlimə müsbət münasibət, düzgün yanaşma inkişafa müsbət təsir edir. Dərnəklər həyatla əlaqənin möhkəmləndirilməsinə, fənlərarası əlaqənin inkişafına kömək etməklə yanaşı, tədris prosesini fəallaşdırır, təlimin keyfiyyətini yüksəldir, şagirdlərin qarşılıqlı fəaliyyətini artırır.

Tərbiyənin ümumi prinsiplərinə əsaslanaraq sinifdənxaric tərbiyə işinin uğurlu nəticələr verməsi üçün aşağıda nəzərə çatdırılan tələblərə də əməl edilməlidir.

1. Şagirdlərin sinifdənxaric tədbirlərdə iştirakı könüllülük əsasında olmalıdır. Sinifdənxaric dərnəklər üzrə bölmələrin, fakültətiv məşğələlərin və s. seçilməsi könüllü xarakter daşımalı və dərnək üzvləri demokratik üsulla müəyyənləşdirilməlidir. Belə ki, şagirdlər öz maraqlarına, istəklərinə, bacarıqlarına uyğun dərnəklərin üzvü kimi çalışmalıdırlar. Bu məsələdə fənn müəllimi tərbiyəçini, sinif rəhbərini və şagirdi məcbur edə bilməz, onlara məsləhət və istiqamət verə bilər;

2. İctimai nöqteyi-nəzərdən ideya-mənəvi istiqamət yönümdən də sinifdənxaric işlər inkişafetdirici və faydalı olmalıdır. Belə ki, elə tədbirlər həyata keçirilməlidir ki, onlar şagirdlərin ictimai cəhətdən fəal, ideya-mənəvi cəhətdən sağlam əqidəli, zəngin və hərtərəfli dünya görüşə malik olmasına, həmçi-

nin iradəli, əzmkar şəxsiyyətlər kimi yetişmələrinə kömək göstərsin. Yəni təntənəli yığıncaqlar, görüşlər, muzeylərə və tarixi məkanlara tənəzzöh etmək, müsabiqələr, yarışlar keçirmək və s. təşkil oluna bilər;

3. Sinifdənxaric tədbirlər planlaşdırılan zaman şagirdlərin təşəbbüskarlığına, yaradıcılığına və fəaliyyətinə geniş yer verilməlidir. Tədbirlərin gedişi prosesində şagirdlərin bu xüsusiyyətləri nəzərə alınarsa onlarda şəxsi keyfiyyətlər, bacarıqlar, özünə inam, idarəçilik, məsuliyyət hissi məhz belə bir mövqe zamanı sürətlə inkişaf edər. Şagirdlər tədbirlərin həyata keçirilməsi prosesində problemin həlli və işin ümumi məqsədi üçün müxtəlif üsullar, yollar axtarır və tətbiq edirlər. Bu da şagirdlərdə gələcəkdə qarşılaşa biləcəkləri hər bir vəziyyətdən çıxış yolu tapmalarına zəmin yaradır.

4. Şagirdləri maraqlandırmaq və səmərəli nəticələrə nail olmaq üçün sinifdənxaric tədbirlər əyləncəli, təşkilati-işgüzar oyun şəklində təşkil edilməlidir. Belə ki, əyləncəli şəkildə öyrənmə daha maraqlı olur. Şagirdlər yorulmur və tədbirlərin səmərəli təşkilinə daha çox fəallıq göstərirlər.

5. Şagirdlərin dünyagörüşünü genişləndirən, bilik və bacarıqlarını inkişaf etdirən, maraqlarını artıran, sağlamlığını təmin edən və fiziki keyfiyyətlərini təkmilləşdirən məşğələ və tədbirlərdən səmərəli şəkildə istifadə olunması sinifdənxaric tədbirlərin təşkilinə verilən tələblərdən sayılır. Həmin tələblərə əməl edildikdə təlimə və tərbiyəyə kompleks yanaşma təmin olunur.

6. Sinifdənxaric tədbirlər şagirdlərin təlim nəticələrinin yüksəldilməsinə, uğur qazanmaq üçün səy göstərməsinə və təlim prosesində əldə etdiyi bilik və bacarıqların vəhdətdə inkişafına müsbət təsir etməlidir. Təsadüfi deyildir ki, bir sıra məktəblərdə sinifdənxaric tədbirlər tədris işi ilə qarşılıqlı əlaqədə

həyata keçirilir. Belə ki, sinifdənxaric tədbirlər dərsin məntiqi davamı kimi müntəzəm, sistemlə həyata keçirilir.

Sinifdənxaric tədbirlər sırasında dərnəklər iki istiqamətdə təşkil olunur. Fənn dərnəkləri, marağa və xüsusi bacarığa görə fəaliyyət göstərən dərnəklər:

**1. Fənn dərnəkləri** bilavasitə məktəbdə tədris olunan fənlərlə bağlıdır. Bu dərnəklər həmin fənlərin dərindən mənimsənilməsinə, şagirdlərin biliklərinin daha da genişləndirilməsinə xidmət edir. Fənn dərnəklərini əsasən fənni tədris edən müəllimlər aparırlar. Bunların məqsədi şagirdlərin ayrı-ayrı fənlərə olan maraqlarını artırmaq, onların dərsdə mənimsədikləri bilikləri daha da zənginləşdirməkdir. Dərnəyi təşkil etməzdən əvvəl şagirdlərlə maarifləndirici söhbətlər aparılmalıdır. Dərnək üzvləri müəyyənləşdirildikdən sonra onun işi, istiqaməti, planı müəyyən edilir. Bundan sonra fənn müəllimlərinin birinin rəhbərliyi altında fəaliyyətə başlayır. Dərnəkdə proqramda olmayan, lakin proqram materialının dərindən öyrənilməsinə kömək edən mövzular əhatə olunur. Bu zaman hər bir fənnin özünəməxsus xüsusiyyəti nəzərə alınır. Maraqlı, interaktiv metodlardan, yeni texnologiyalardan istifadə olunur. Məktəblərdə daha geniş yayılan fənn dərnəkləri bunlardır:

***Ədəbiyyat və dil dərnəkləri***

Bu dərnəklərdə şagirdlər milli və dünya ədəbiyyatının tanınmış yazıçıları, nümayəndələri haqqında daha geniş məlumatlara yiyələnirlər. Xalqın milli-mənəvi dəyərlərindən, adət-ənənələrindən, tarixindən bəhs edən elmi-bədii əsərlərlə tanış olur, onları təhlil edir və səhnəciklər də hazırlayırlar. Eyni zamanda dərnəklər şagirdlərin yaradıcılıq qabiliyyətlərinin də formalaşmasına, inkişafına müsbət təsir göstərir. Bununla yanaşı, xarici dillərin öyrənilməsinə də xüsusi diqqət yetirilən dərnəklər təşkil edilir. Həmin dərnəklərdə şagirdlər ingilis, alman,

fransız, fars, ərəb və s. dilləri öyrənirlər. Bu biliklər və dərnəklərdə qazanılan bacarıqlar şagirdlərin dünyagörüşünün inkişaf etməsinə əhəmiyyətli təsir göstərir.

***Fizika və riyaziyyat dərnəkləri***

Burada şagirdlər fizika və riyaziyyatın tarixinə, bu sahədə böyük kəşflər etmiş alimlərin həyat və fəaliyyətinə dair məlumatları, riyazi və fiziki terminləri, anlayışları öyrənirlər. Bu zaman onlar ölkəmizin və dünya fizika və riyaziyyat elmlərinin inkişafında böyük xidmətləri olan şəxsiyyətlərin, alimlərin fikirləri ilə tanış olurlar. Texnikada, istehsalatda tətbiq edilmə sahələri haqqında məlumat əldə edir, yeni texniki avadanlıqlarla tanış olurlar, yəni bu elmlərin sirlərini daha mükəmməl öyrənirlər. Beləliklə, respublika və beynəlxalq olimpiadalarda iştirak edə biləcək yüksək biliyə malik şagirdlər yetişdirilir.

***Coğrafiya dərnəyi***

Bu dərnəyin məqsədi coğrafiya, diyarşünaslıq sahəsinə marağı olan şagirdləri bir araya toplayaraq onlarda coğrafi bilikləri zənginləşdirməkdir. Dərnəkdə şagirdlər məşhur səyyahlar haqqında məlumatlar alırlar. Coğrafiya dərnəyinin müxtəlif bölmələri üzrə şagirdlər fiziki coğrafiya, qitələr və materiklər coğrafiyası, çaylar, göllər, okeanlar, torpağın xüsusiyyətləri, Azərbaycanın təbiəti, coğrafiyası, abidələri və s. haqqında məlumat alır, biliklər əldə edirlər. Coğrafiya dərnəyinin üzvləri olan yuxarı sinif şagirdləri elmi-tədqiqat xarakterli məruzələr hazırlayır, rayonlararası və respublika üzrə olimpiadalarda çıxış edirlər.

***Kimya dərnəyi***

Bu dərnəkdə iştirak edən şagirdlər kimya elminin və kimyəvi elementlərin insan həyatında və təbiətdə yerini, rolunu öyrənməklə yanaşı, kimya elminin inkişafı sahəsində fəaliyyət göstərən alimlərin həyat və fəaliyyətinə dair biliklər əldə edir-

lər. Dərnək üzvləri, eyni zamanda kimya elminə və kimyaçı alimlərin yaradıcılığına həsr olunmuş təqdimatlar, gecələr təşkil edir, yüz beş element haqqında daha müfəssəl məlumatlar verirlər. Kimya elminin inkişafında xüsusi xidmətləri olan Azərbaycan kimyaçılarının fəaliyyəti ilə daha geniş şəkildə tanış olurlar.

Onu da qeyd etmək lazımdır ki, bu cür səmərəli, planlı, düzgün təşkil edilən dərnəklərdə şagirdlər zəruri biliklər qazanmaqla yanaşı, ümumi inkişafda bu elmlərin hər birinin özünəməxsus yeri və əhəmiyyəti olduğunu öyrənirlər.

**2. Marağa və xüsusi bacarığa görə fəaliyyət göstərən dərnəklər** şagirdlərin maraq və meylinə görə təşkil edilir. Belə dərnəkləri müəyyən sahəyə uyğun sayılıb-seçilən mütəxəssislər təşkil edib keçirə bilərlər.

***Gənc təbiətçilər dərnəyi***

Gənc təbiətçilər dərnəyi təbiətin və təbiətdə baş verən proseslərin öyrənilməsi ilə şagirdləri təbiətə və ətraf mühitə dost kimi yetişdirir. Belə dərnəklər dünyanın və ölkəmizin flora-faunasının öyrənilməsində mühüm rol oynayır. Bu da onların maraq dairələrinin, dünyagörüşlərinin genişləndirilməsində, analiz və sintez etmə bacarıqlarının inkişafında böyük rola malikdir. Həmin bu dərnəklərdə şagirdlər doğma vətənin, yaşadıqları ərazinin, bölgənin bitki aləmini öyrənirlər. Bu cür təşkil olunmuş tədbirin nəticəsində şagirdlərdə vətənpərvərlik hissi daha da güclənir. Dərnəyin üzvləri tədris-təcrübə sahəsində işləyir, müxtəlif bitkilərə qulluq edir, yenilərinin əkilməsində iştirak edirlər. Dərnəyin üzvləri yaşıllaşdırma aksiyalarında da fəal iştirak edirlər. Məşğələlərdə, həmçinin ölkəşünaslıq bilikləri də öz əksini tapır.

**Ölkəşünaslıq** fəaliyyətlərinin məqsədi şagirdlərin yaşadıqları rayonun, bütövlükdə vətəninin təbii ehtiyatlarını, səna-

ye və kənd təsərrüfatının tarixini, mədəniyyətini və s. məsələləri öyrənmələrinə nail olmaqdır. Məşğələlərdə onlar yaşadığı yerin, bölgənin tarixini, yeraltı və yerüstü sərvətlərini, təbiətini tədqiq edir, onun nailiyyətlərini, adət-ənənələrini, folklorunu dərindən öyrənirlər.

Eyni zamanda şagirdlər hər bir kəndin, şəhərin, küçənin özünəməxsus tarixi, abidələri və görkəmli şəxsləri haqqında da məlumat əldə edirlər. Şagirdlərə izah olunmalıdır ki, hər bir kəndin, şəhərin tarixi ümumilikdə Vətən tarixinin bir bölməsidir. Dərnəklərin fəaliyyətində iştirak edən şagirdlər şifahi xalq ədəbiyyatı nümunələrini toplayır, qəhrəmanların, əmək qabaqcıllarının həyat və fəaliyyətini daha əhatəli şəkildə öyrənirlər.

***Bacarıqlı əllər dərnəyi***

Adətən ibtidai sinif şagirdləri üçün təşkil edilən bacarıqlı əllər dərnəyi əmək təlimi dərslərində öyrənilən bilik, bacarıq və vərdişlərin daha da möhkəmləndirilməsinə zəmin yaradır. Hər bir şagird özünün nəyə qadir olduğunu, bacarığını nümayiş etdirməklə yaradıcılıq təxəyyülünü və s. şəxsi qabiliyyətlərini inkişaf etdirir.

***Texniki dərnəklər***

Şagirdlər avtomobil, aviomodel və texniki avadanlıqların iş prinsipi ilə tanış olur, bu sahədə daha geniş maariflənir, biliklərə yiyələnirlər. Dərnəklərdə iştirak edən şagirdlər yaradıcılıq, axtarıcılıq, düşünmə, birləşdirmə və s. kimi bacarıqlarını da nümayiş etdirir, məktəbin fizika, kimya, biologiya laboratoriyaları üçün əyani vəsaitlər hazırlaya bilirlər. Bu prosesdə onlar bir sıra ixtiraçıları tanıyır, onların əldə etdikləri avadanlıqların xüsusiyyətlərini, mahiyyətini, hansı sahədə və necə istifadə olunduğunu öyrənir, təhlil edirlər. Bəzən də özləri ixtiraçıya çevrilirlər. Bacarıqlı əllər və Texniki dərnəklər vasitəsilə şagirdlər

tərəfindən hazırlanan əl işlərinin məktəb, rayon və respublika səviyyəsində sərgilənməsinə şərait yaradılır.

***Bədii özfəaliyyət və estetik tərbiyə yönümlü dərnək***

Əksər məktəblərdə dram dərnəkləri təşkil edilir. Belə dərnəklərdə şagirdlər müxtəlif musiqi alətlərində çalmağı, oxumağı, rəqs etməyi, xalq oyunları haqqında məlumat toplamağı öyrənirlər. Bu da onların bədii yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Dərnəyin üzvləri bir sıra bədii, mədəni tədbirlərdə fəal iştirak edirlər. Lakin bu dərnəklərin təşkili də xüsusi diqqət və planlı fəaliyyət tələb edir.

Bədii özfəaliyyət dərnəklərinin təşkili aşağıdakı fəaliyyət formaları üzrə həyata keçirilə bilər:

1. Ədəbi dərnəklərin təşkili və bacarıqlarının təqdim olunması;
2. Kino və dram əsərləri üçün müəyyən biliklərin əldə edilməsi;
3. Təsviri incəsənət əsərlərinin yaradılması mərhələləri;
4. Vokal musiqisi üzrə dərslərin aparılması;
5. Musiqili tədbirlərin təşkili dərnəkləri;
6. Xoreoqrafiya məşğələlərinin keçirilməsi;
7. Foto sərgilərinin müvafiq mövzular üzrə təşkili;
8. Tətbiqi sənət əsərləri üzrə sərgilərin təşkili və s.

Şagirdlərin estetik tərbiyəsinin inkişafında, formalaşmasında həmin dərnəklərin xüsusi əhəmiyyəti var.

Buna görə də həmin dərnəklərin təşkilində aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Dram tamaşaları üçün pedaqoji əsərlərin seçilməsi zamanı uşaqların yaş, bilik və bacarıq səviyyələri nəzərə alınmalıdır.
2. Dərnək üzvlərinin seçilməsi prosesində bədii ədəbiyyata daha çox maraq göstərən, nitqində, ifadə tərzində qüsurlar

olmayan, bu istiqamətdə müəyyən istedada malik olan şagirdlərə üstünlük verilməlidir.

3. Dram tamaşaları üzrə rolların bölüşdürülməsi, seçilmiş əsər üzərində iş vaxta uyğun olmalı və dərnək üzvlərinin də iştirakının məqsədəuyğunluğu nəzərə alınmalıdır. Çünki bu prosesdə kimin hansı rolun öhdəsindən daha yaxşı gələ biləcəyi və rolların kimə tapşırılması, təşkilati, texniki işlərin kimə həvalə olunması məsələsi müəyyənləşdirilir. Belə olduqda dərnək üzvləri səmərəli fəaliyyət göstərirlər.

4. Dərnəkdə həyata keçirilən məşğələlərdə "Səhnə danışığı" üzrə işlər əvvəlcədən hazırlanmış plan, proqram əsasında aparılmalıdır.

5. Dram əsərlərində cərəyan edən hadisələri daha yaxşı təqdim etmək üçün texniki vasitələrlə yanaşı, musiqi alətlərində ifa etməyi bacaran şagirdlər də dərnəyə cəlb edilməlidirlər.

6. Dərnəyin üzvlərinin iştirakı ilə səhnələşdiriləcək, tamaşaya qoyulacaq dram əsərlərinin mövzusuna uyğun dekorasiya və paltarların hazırlanması, obrazın xarakterinə uyğun qrim etmə bacarığı da mühüm əhəmiyyət kəsb edir. Bu proses üçün zəruri tələblərə uyğun qabiliyyətə malik olan dərnək üzvləri seçilməlidir.

7. Mütəxəssislərin, ədəbiyyat müəllimlərinin, məktəb rəhbərlərinin dərnək üzvlərinin hazırladıqları tamaşaların ilk təqdimatına, keçirilən sərgilərinə, bədii gecələrə dəvət olunması vacibdir.

8. Gələcək uğurlara imza atmaq, daha böyük uğurlar əldə etmək üçün dərnək üzvlərinin iştirakı ilə müvafiq təhlillər aparılmalı, deyilən iradlar, müsbət və mənfi cəhətlər obyektiv, ədalətli qiymətləndirilməlidir.

Şagirdlərin estetik tərbiyəsinin inkişaf etdirilməsi, zövqünün formalaşdırılması, bədii yaradıcılıq qabiliyyətlərinin inki-

şafı baxımından bütün bu deyilənlərə əməl edilməsi xüsusi əhəmiyyətə malikdir. Dərnəkdə aparılan hər bir prosesin tarixi qədimdir. Belə ki, bunlar tarix boyu ayrı-ayrı xalqların məişətinə daxil olmuş, onların həyatında, müxtəlif sahələrində, əmək və mərasim məclislərində insanların həyat tərzinə çevrilmişdir. Bədii özfəaliyyət və estetik tərbiyə yönümlü dərnəkdə göstərilən fəaliyyət növləri ictimai əsaslarla ayrılıqda aşağıdakı adlarla fəaliyyət göstərə bilərlər:

***Bədən tərbiyəsi və idman dərnəkləri***

Bu dərnəklərdə müxtəlif idman növləri ilə məşğul olmaq, öz sağlamlıqlarını möhkəmləndirmək, idman sahəsində müvəffəqiyyət qazanmaq istəyən şagirdlər bir araya gəlirlər. Stabil, ardıcıl, planlı, düzgün qurulmuş idman məşqləri keçirilir, idman hərəkətlərini icra edirlər. Dərnəklərin fəaliyyəti, iş prinsipi, tələbləri haqqında öyrənmək məqsədilə dərnək rəhbərlərinə, şagirdlərinə suallar və tapşırıqlar da verilə bilər. Bu suallar və tapşırıqlar aşağıdakı kimi tərtib oluna bilər:

1. Sinifdənxaric tərbiyə işlərinin mahiyyəti və məqsədi haqqında nə deyə bilərsiniz?
2. Sinifdənxaric tərbiyə işlərinin təşkili formaları barədə danışın.
3. Sinifdənxaric tərbiyə işlərinin təşkilinə verilən tələblər hansılardır?
4. Sinifdənxaric tərbiyə işləri ilə məktəbdənkənar tərbiyə işlərinin ümumi və fərqli cəhətləri hansılardır?
5. Məktəbdənkənar tərbiyə işlərinin mahiyyəti və məqsədi haqqında nə deyə bilərsiniz?
6. Sinifdənxaric tərbiyə işlərinin təşkilində dərnəklərin mövqeyi və əhəmiyyəti barədə danışın.
7. Sinifdənxaric tərbiyə işlərinin təşkilində disputların rolu barədə fikirlərinizi bildirin.

8. Məktəbdənkənar təhsil müəssisələrinin qurulması və təsnifatı barədə danışın.

9. Disputların və müzakirələrin təşkili və keçirilməsi yollarına dair şərh verin.

10. Ekskursiyaların təşkili və keçirilməsi üzrə işin xüsusiyyətlərini göstərin.

11. Sinifdənxaric tərbiyəvi tədbirlər və şagirdlərin hərtərəfli inkişafında onların rolu barədə danışın.

Dərnəklərin təşkil olunmasında şagirdlərin marağının artırılması üçün dərnək rəhbərlərinin hazırlığı xüsusi əhəmiyyətə malikdir. Dərnək rəhbərlərinin aşağıdakı əmək funksiyaları vardır:

- dərnəyin tərkibini komplektləşdirir və onun davamlı fəaliyyətini təmin edir;
- aparılan işin pedaqoji cəhətdən əsaslandırılmış forma, vasitə və metodlarını müəyyən edir;
- məşğələlərin planını, proqramını tərtib edir və onların yerinə yetirilməsini təmin edir;
- şagirdlərin yaradıcılıq qabiliyyətlərini aşkara çıxarır, onların meyl və maraqları üzrə uyğun şərait yaradır;
- istedadlı şagirdlərin üzə çıxarılmasına köməklik göstərir, şagirdlərlə fərdi iş aparır, olimpiada, yarış, sərgi və s. tədbirlərdə dərnək üzvlərinin iştirakını təmin edir;
- valideynlərə və məktəbin pedaqoji işçilərinə istedadlı şagirdlərin inkişafı üzrə məsləhətlər verir;
- məşğələ zamanı əməyin mühafizəsini, texniki təhlükəsizlik və sanitar-gigiyena normalarına əməl olunmasını təmin edir.

*Dərnək rəhbərləri dərnəyin uğurlu və məqsədyönlü fəaliyyətini təmin etmək üçün aşağıda qeyd olunan cəhətləri bilməlidirlər:*

- şagird şəxsiyyətinin inkişafının əsas qanunauyğunluqlarını, onların yaş xüsusiyyətlərini və maraqlarını;
- pedaqogikanın, psixologiyanın, fiziologiya və gigiyenanın əsaslarını, təlim və tərbiyənin, asudə vaxtın və əyləncələrin təşkilinin müasir metodlarını, elm, texnika, mədəniyyət və incəsənətin nailiyyətlərini;
- müvafiq təmayül üzrə dərnək və digər məşğələlərin proqramlarını, sinifdənxaric və məktəbdənkənar işin təşkili üzrə normativ sənədləri, texniki vasitələrdən istifadə, əməyin təhlükəsizliyi və texniki təhlükəsizlik qaydalarını.

Dərsdənkənar məşğələlər və fənn dərnəkləri üzrə mütəxəssislər ayrılır və onlar ixtisas dərəcələrinə uyğun maliyyələşdirilir:

8-ci dərəcə (dərnək rəhbəri): orta ixtisas təhsilli, iş stajına tələb qoyulmadan;

9-cu dərəcə (dərnək rəhbəri): orta ixtisas təhsilli, 3 ildən 5 ilədək pedaqoji stajı olan və ya orta ixtisas məktəbini fərqlənmə diplomu ilə bitirən;

10-cu dərəcə (dərnək rəhbəri): a) ali təhsilli, iş stajına tələb qoyulmadan; b) orta ixtisas təhsilli, 5 ildən 10 ilədək pedaqoji stajı olan;

11-ci dərəcə (dərnək rəhbəri): a) ali təhsilli, 3 ildən 8 ilədək pedaqoji stajı olan və ya ali məktəbi fərqlənmə diplomu ilə bitirən; b) orta ixtisas təhsilli, 10 ildən 15 ilədək pedaqoji stajı olan;

12-ci dərəcə (II kateqoriya dərnək rəhbəri): a) ali təhsilli, 8 ildən 13 ilədək pedaqoji stajı olan; b) orta ixtisas təhsilli, 15 ildən çox pedaqoji stajı olan;

13-cü dərəcə (I kateqoriya dərnək rəhbəri): a) ali təhsilli, 13 ildən 18 ilədək pedaqoji stajı olan;

14-cü dərəcə (ali kateqoriyalı dərnək rəhbəri): a) ali təhsilli, 18 ildən çox pedaqoji stajı olan.

Fənn dərnəklərinə rəhbərlik ilkin dərs bölgüsü zamanı müəllimlərə həvalə edilmir. Dərnək yalnız yeni dərs ilində məktəbdə dərnəyi təşkil etməyə maddi-texniki baza olduğu və kadr müəyyənləşdirildiyi halda fəaliyyət göstərə bilər. Dərnəyə rəhbərlik isə şagirdlərin meyl və maraqlarına uyğun fənn müəllimlərinə həvalə edilir. Fənn dərnəkləri üzrə dərs saatı olmadığı üçün o dərs yükü nəzərə alınmaqla müəllimlər arasında bölünməlidir. Fənn dərnəklərinə rəhbərliyin müəllimlərin sosial məsələlərinin həlli məqsədi ilə verilməsi qanunvericiliyə zidd sayılır.

Azərbaycan Respublikası Elm və Təhsil Naziri "Ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlərin (fakultativ kursların) təşkili qaydası"nı 01 sentyabr 2022-ci il tarixli F-529 nömrəli əmri ilə təsdiq edib. "Ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlərin (fakultativ kursların) təşkili qaydası"nın birinci bəndinə əsasən dərsdənkənar məşğələ şagirdlərin meyl, maraq, bacarıq və qabiliyyətinə uyğun olaraq təşkil olunmalıdır. Bu da öz növbəsində şagirdlərin biliklərinin genişlənməsinə, çevik düşünmə bacarıqlarının, yaradıcı təfəkkürlərinin inkişafına xidmət etməlidir. Eyni zamanda dərsdənkənar məşğələlər vasitəsilə peşəyönümü istiqamətində iqtisadi və maliyyə savadlılığı, mənəviyyat, insan hüquq və azadlıqları, həyat fəaliyyətinin təhlükəsizliyi üzrə bilik və bacarıqların mənimsənilməsi təmin edilə bilər. Qeyd olunan keyfiyyətlərin inkişafını təmin etmək üçün aşağıdakı sahələrin tədrisinə üstünlük verilə bilər:

- iqtisadi və maliyyə savadlılığı;
- mənəviyyat;

- insan hüquq və azadlıqları;
- həyat fəaliyyətinin təhlükəsizliyi;

Sadalanan sahələrin inkişafı öz növbəsində şagirdlərin rəqəmsal bacarıqlara, çevik, analitik düşünmə qabiliyyətinə, tənqidi yaradıcı təfəkkür və ünsiyyət bacarıqlarına yiyələnməsində aparıcı rola malik ola bilər.

"Fakültativ, fərdi və qrup məşğələsi" adı altında fəaliyyət göstərən dərs forması məzmununda və adında müəyyən dəyişiklik olunaraq hazırda "Dərsdənkənar məşğələ və fakültativ kurs"lar adlanır. Əmrin 3.8-ci bəndində qeyd olunur ki, "Dərsdənkənar məşğələ və fakültativ kurs"lar Pedaqoji Şuranın qərarına əsaslanaraq, məktəb direktorunun təsdiq etdiyi cədvəl üzrə ümumi dərs cədvəlinə uyğunlaşdırılaraq tam siniflə keçirilir. 3.9-cu bənddə isə "Tədris dilindən asılı olmayaraq dərsdənkənar məşğələlərin dövlət dilində - Azərbaycan dilində keçirilməsi" öz əksini tapır. Bu məşğələdə iştirak edən şagirdlərin ümumi orta (IX) və ya tam orta (XI) təhsil haqqında sənədində yer alan "fakültativ kurs və layihələr" hissəsində kursda iştirakına dair qeyd aparılması əmrin 3.10-cu bəndində göstərilir. Dərsdənkənar məşğələlərin qiymətləndirilməsi yarımillik və illik qiymətləndirmə meyarları ilə həyata keçirilir.

# AZƏRBAYCANLILARIN HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL BAYRAMININ TƏŞKİLİ









## 2.5. ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PEDAQOJİ ŞURANIN FƏALİYYƏTİ

Məktəbdə idarəetmə formalarından biri də Pedaqoji Şuradır. Təhsil-tərbiyə və təlim prosesinin təşkili üçün yaradılan Pedaqoji Şura məktəbin müəllim kollektivindən ibarət olur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19 noyabr 2010-cu il tarixli əmrinə əsasən Pedaqoji Şura haqqında Əsasnamə ("Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədinin 3.6-cı bəndinə əsasən) təsdiq edilmişdir.

Pedaqoji Şuranın ümumi təhsil müəssisələrində ali idarəetmə orqanı olduğu qeyd olunan Əsasnamədə öz əksini tapıb. Əsasnamənin 4-cü müddəasına əsasən Pedaqoji Şura aşağıdakı məsələləri müzakirə edib müvafiq qərar qəbul etmək hüququna malikdir:

- yerli şəraitə uyğun olaraq müəssisənin iş rejimini müəyyənləşdirmək;
- tapşırılmış iş sahəsində səmərəli fəaliyyəti ilə fərqlənən əməkdaşları, habelə təlimdə uğurlu nəticələr qazanan şagirdləri təltiflə rəğbətləndirmək və mükafatlandırmaq;
- müəssisədaxili intizam qaydalarına və əmək funksiyalarına əməl etməyən işçilər barəsində mövcud qanunvericiliyə uyğun tədbirlər görmək;
- ibtidai təhsil səviyyəsində mövcud tədris proqramlarını mənimsəməyən şagirdləri psixoloji-tibbi-pedaqoji müayinəyə göndərmək;
- zəruri hallarda müəssisənin maddi-texniki bazasını müasir tələblərə uyğun qurmaq, istedadlı şagirdlər üçün təmayüllü siniflər yaratmaqla bağlı vəsatət qaldırmaq;

- ciddi tərbiyə şəraitinə ehtiyacı olan şagirdlərin müvafiq təhsil müəssisəsinə göndərilməsi ilə bağlı aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırmaq;

- qanunvericiliklə müəyyən olunmuş digər qərarlar qəbul etmək və s.

Beləliklə, təhsil müəssisələrinin idarə olunmasında Pedaqoji Şura kollegial qərarlar qəbul etməklə aşağıdakı vəzifələri icra edir:

- ümumtəhsillə bağlı Azərbaycan dövləti və hökumətinin qərarlarını, sərəncamlarını, Təhsil Nazirliyinin bütün normativ-hüquqi sənədlərini kollektivin diqqətinə çatdırmaqla müəssisənin fəaliyyətini bu istiqamətdə qurmağı, səmərəli iş sistemi yaratmağı qarşıya məqsəd qoyur;

- məktəbdaxili illik və perspektiv fəaliyyət planlarını, illik və yarımillik hesabatların dinlənilməsini təmin etmək, fənlərin tədris vəziyyətinin öyrənilməsinə dair monitorinq nəticələrinin, təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəssisənin idarə olunmasının təkmilləşdirilməsi istiqamətində müzakirə və təkliflərin verilməsi;

- eləcə də istedadlı şagirdlərlə işin təşkili, dərs bölgüsünün, dərsdənkənar məşğələlərin, "Kiçik Akademiya", Metodik Şura və onun nəzdindəki fənn komissiyalarının və s. kimi birliklərin fəaliyyətinə nəzarət etmək;

- buraxılış imtahanlarının nəticələrinin müzakirə edilməsi və müzakirələr əsasında məzunlara təhsil sənədlərinin verilməsi və s.

Pedaqoji Şuraya sədr təhsil müəssisəsinin rəhbəri, tərkibi müəssisənin pedaqoji kollektivindən, katibi üzvlərdən, ictimai əsaslı fəaliyyət göstərən təşkilatların üzvlərindən və s. ibarət ola bilər (Məktəb icmaları, VMA, Məktəblinin dostu və s.).

Şura fəaliyyətini əsasən iki istiqamətdə qurur:

1. Rəsmi sahəyə - imtahanlara hazırlıq və onların təşkili planının təsdiqi, şagirdlərin sinifdən-sinfə keçirilməsi və məktəbi qurtaranların buraxılışı, məktəbin illik iş planının təsdiqi, rüblər üzrə işin yekunlarını müzakirə etmək, dərs ilinin yekunları və şagirdlərlə yayda iş və s. daxildir.

2. Elmi-pedaqoji sahəyə - yuxarı təşkilatların göstərişlərinin və elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsi, qabaqcıl təcrübənin məktəbdə tətbiqi, məktəbdə pedaqoji prosesin təhlili və s. daxildir.

Şuranın ilk iclasında illik fəaliyyət planı təsdiqlənir. Şura üzvlərinin üçdə ikisi iştirak etdikdə Pedaqoji Şura səlahiyyətli hesab olunur, qərarlar adi səs çoxluğu ilə qəbul edilir və çıxarılan qərarlar məktəb direktoru tərəfindən rəsmiləşdirilir.

Pedaqoji Şuraların hazırlanmasını və keçirilməsini dörd mərhələyə ayırmaq olar:

- planlaşdırma;
- hazırlıq mərhələsi;
- bilavasitə həyata keçirilməsi;
- qərarların yerinə yetirilməsi üzrə işlər.

Pedaqoji Şuraların keçirilməsinə məhdudiyyət qoyulmur, zərurət yarandıqda növbədənkənar keçirilə bilər. Lakin bütün Pedaqoji Şuralar tematik baxımdan bir-birini tamamlamalıdır. Tədris ili ərzində əsasən beş Pedaqoji Şura keçirilməlidir. İlk Pedaqoji Şura avqust ayının axırında keçirilir və aşağıdakı məsələlər öz əksini tapır:

- məktəbin illik iş planının təsdiqi;
- keçən dərs ilinin yekunlarının təhlili;
- yeni tədris ilində qarşıda duran vəzifələrin müzakirəsi.

İl ərzində aparılan digər Pedaqoji Şuralar isə təlim və tərbiyənin əsas problemlərini tənzimləmək məqsədilə keçirilir.

Pedaqoji kollektiv hər il hər hansı bir elmi-praktik problemi əsas götürür. Məsələn, şagirdlərin əxlaq tərbiyəsi ilə bağlı, təlim prosesinin fəallaşdırılması ilə bağlı, valideynlərlə əməkdaşlıq işlərinin qurulması ilə bağlı və s.

Tədris ilinin sonunda keçirilən Pedaqoji Şura isə adətən 3 məqsədlə aparılır:

- buraxılış imtahanları ilə bağlı;
- imtahanların gedişatı ilə bağlı;
- imtahanların yekunları ilə bağlı.

Aparılan hər bir Pedaqoji Şura protokollaşdırılır. Məruzə və hesabatlar protokola əlavə olunur, rəsmi məktəb sənədi kimi nömrələnir və aidiyyəti qurumlar tərəfindən təsdiq olunur. Müəssisə daxilində Pedaqoji Şuranın protokollar kitabı daima saxlanılır.

# QƏLƏBƏ SEVİNCİ





## 2.6. MƏKTƏBLƏRDƏ "VALİDEYN KOMİTƏSİ"NİN FƏALİYYƏTİ

"Valideyn Komitəsi" yetişən nəslin təlim-tərbiyəsinin həyata keçirilməsində, elmi biliklərə yiyələnməsində, vətənə, onun tarixinə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, adət-ənənələrinə məhəbbət və hörmət hissinin tərbiyə olunmasında, milli-mənəvi və dünyəvi dəyərlərə sahib məsuliyyətli, sağlam ruhlu şəxsiyyət kimi formalaşmasında məktəbə və ailəyə köməklik göstərməlidir.

Ümumtəhsil məktəbinin "Valideyn Komitəsi" haqqında Əsasnamə məktəbin iş planını, valideyn yığıncaqlarının və Pedaqoji Şuranın qərarlarını, məktəb direktorunun və sinif rəhbərlərinin tövsiyələrini rəhbər tutur.

Ümumtəhsil məktəbinin "Valideyn Komitəsi" haqqında Əsasnamədə aşağıdakılar öz əksini tapmışdır.

**1. "Valideyn Komitəsi" işinin məzmunu və vəzifələri:**

- uşaqların tərbiyəsində vahid tələbləri müəyyən etmək və onun səmərəliliyini artırmaq məqsədilə ailənin, məktəbin və ictimaiyyətin birgə fəaliyyətini möhkəmləndirməyə kömək edir;
- uşaqların əsas icbari təhsilə cəlb olunmasında məktəbə və valideynlərə kömək göstərir;
- şagirdlər və valideynlər arasında pedaqoji və psixoloji biliklərin təbliğinə kömək edir;
- şagirdlərdə milli-əxlaqi, mənəvi dəyərlərin inkişaf etdirilməsi və bu prinsiplər üzrə yaşamaq üçün daxili tələbatın formalaşmasına, şagirdlərdə şüurlu intizam, davranış mədəniyyəti, böyüklərə hörmət tərbiyəsi üzrə məktəbin həyatında fəal iştirak edir;

- müəllim nüfuzunun artırılmasında, təlimə məsuliyyətli münasibət tərbiyəsində, məktəblilərin asudə vaxtının məzmunlu təşkilində məktəb və ailəyə kömək edir;
- özünəxidmət vərdişlərinin inkişafına, yeniyetmələrin məktəbdə və ailədə əmək tərbiyəsinin və peşəyönümü işinin təşkilinə imkan yaradır;
- məktəblilərin maraq, meyl və qabiliyyətlərini, valideynlərin arzularını nəzərə almaqla şagirdlərə peşə seçməkdə kömək göstərir;
- valideyn ictimaiyyətini məktəb həyatında fəal iştirak etməyə, onları sinifdənxaric və məktəbdənkənar işlərin təşkilinə cəlb etməyə, şagird özünüidarəsinin inkişafına kömək göstərir;
- uşaqların tərbiyəsində valideynlərin məsuliyyətini artırır;
- məktəbdə kitab fondunun zənginləşdirilməsinə kömək göstərir;
- məktəblilərdə zərərli adətlərin, uşaq nəzarətsizliyinin, qanun pozuntusunun profilaktikası üzrə işlərdə iştirak edir;
- məktəblilərin sağlamlığının qorunması və möhkəmləndirilməsinə hər vasitə ilə qayğı göstərir.

**2. "Valideyn Komitəsi" işinin təşkili:**

Məktəb "Valideyn Komitəsi" ümumməktəb valideyn yığıncağında (konfransında) bir tədris ili müddətinə seçilir. Onun üzvlərinin miqdarı hər sinfə uyğun olaraq "Valideyn Komitəsi"nin nümayəndələri nəzərə alınmaqla valideyn yığıncağının (konfransının) qərarı ilə müəyyən edilir. Komitənin tərkibindən sədr və katib seçilir. "Valideyn Komitəsi" tədris ili üçün iş planı tərtib edir. "Sinif Valideyn Komitəsi" iş planını sinif rəhbəri, "Ümumməktəb Valideyn Komitəsi" və məktəb direktoru ilə razılaşdırır. "Valideyn Komitəsi"nin qərarları komitə üzvlərinin yarıdan az olmayaraq iştirak etdiyi iclasda səs çoxluğu ilə qəbul edilir.

"Ümumməktəb Valideyn Komitəsi"nin yığıncağı ildə iki dəfədən, sinif valideyn yığıncaqları isə ildə 4 dəfədən az olmayaraq çağırılır.

"Ümumməktəb Valideyn Komitəsi" üzvlərinin rəhbərliyi altında məktəbdə işin ayrı-ayrı bölmələri üzrə müvəqqəti komissiyalar yaradıla bilər.

Məktəbin direktoru "Valideyn Komitəsi"nin qərarı ilə razılaşmadıqda mübahisəli məsələ rayon (şəhər) təhsil şöbələri (idarələri) tərəfindən həll edilir.

"Valideyn Komitəsi" öz iclaslarını protokollaşdırır, sənədlər məktəbdə saxlanılır.

**3. "Valideyn Komitəsi"nin hüquqları:**

"Valideyn Komitəsi" aşağıdakı hüquqlara malikdir:

- məktəbin fəaliyyətinə kömək göstərilməsi məsələləri üzrə məktəb müdiriyyəti ilə birgə müvafiq təşkilatlara müraciət etmək;
- məktəb işinin yaxşılaşdırılması üzrə təkliflər vermək;
- məktəb işinin vəziyyəti və perspektivləri haqqında direktorun və sinif rəhbərlərinin məlumatlarının müzakirəsində iştirak etmək;
- məktəblə hami müəssisə arasında əlaqələrin möhkəmləndirilməsini və qarşılıqlı münasibətlərin təşkilini özünə mühüm vəzifə hesab etmək;
- uşaqların tərbiyəsinə, uğurlarına görə valideynləri mükafatlandırmaq, həmçinin onların tərbiyəsinə laqeyd yanaşan valideynlər üzərində ictimai təsirə nail olmaq, məktəbin Pedaqoji Şurasına təkliflər vermək;
- icbari təhsil fondunun planlaşdırılmasında və bölgüsündə iştirak etmək.

"Ümumməktəb Valideyn Komitəsi"nin sədri Pedaqoji Şuranın üzvü hesab edilir və komitənin fəaliyyəti ilə bağlı olan

məsələlərin həllində səlahiyyətə malikdir. Hər bir məktəbin nəzdində siniflər üzrə valideyn komitələri yaradılır. Bu valideyn komitələri məktəblə valideynlər arasında əməkdaşlığın təmin olunmasına xidmət edir. "Sinif Valideyn Komitələri"nin (bundan sonra SVK) vaxtaşırı iclasları təşkil olunur və burada görülmüş işlər, nöqsanlar müzakirə edilir. Valideynlə müəllimlər arasında qarşılıqlı ünsiyyət nəticəsində məktəblilərin pedaqoji və psixoloji problemləri təhlil olunur.

SVK-nın iclasları aşağıdakı hallarda keçirilir:

- Təşkilati məsələlərlə bağlı;
- Cari məsələlər və ya konkret mövzu ilə bağlı;
- Tədris ilinin yarımillik və illik dövrü hesabatları zamanı.

Tədris ilinin əvvəlində SVK-nın strukturu və tərkibi aşağıdakı kimi müəyyənləşdirilməlidir:

Soyadı və adı, vəzifəsi:

1. "Valideyn Komitəsi"nin sədri;
2. "Valideyn Komitəsi"nin sədr müavini;
3. Təlimə nəzarət;
4. Şagird hüquqları və sağlamlıq işləri üzrə nəzarət;
5. Əmək və təşkilati məsələlər üzrə nəzarət.

Hər bir SVK sinif rəhbəri ilə birgə tədris ili ərzində həyata keçirilən fəaliyyət planı müəyyənləşdirməlidir (nümunə):

| Tarix | Fəaliyyət istiqamətləri |
|---|---|
| *sentyabr* | "Sinif Valideyn Komitəsi"nin yığıncağının keçirilməsi və SVK-nın tərkibini müəyyən etmək məqsədilə seçkinin keçirilməsi; Yeni dərs ilinə hazırlıq məqsədilə valideynlərlə görüşlər təşkil etmək; Valideynləri məktəb şəraiti ilə (sinif otaqları, fənn kabinetləri, idman zalı, bufet, akt zalı, kitabxana) tanış etmək;<br>Bilik günü tədbirində valideynlərin iştirakının təmin olunması; |
| *oktyabr* | Sinif valideyn iclası; "Ümummәktəb Valideyn Komitəsi"nin yığıncağında "Sinif Valideyn Komitəsi"-nin iştirakının təmin olunması; Açıq qapı günlərində valideynləri dərslərdə iştirak etməyə dəvət etmək; |
| *noyabr* | "Valideyn Komitəsi"nin yığıncağı: "Ailənin tərbiyə imkanları" mövzusunda diskussiya; Şagirdlərin gün rejiminin necə qurulmasını izləmək məqsədilə reydlərin keçirilməsi; "Valideyn Komitəsi"nin yığıncağı: komitənin təlimə nəzarət sektoru nümayəndəsinin valideynlərin dərslərdə iştirakının nəticələrinə həsr olunmuş hesabatı; I rübün yekunlarına həsr olunmuş yığıncaq keçirmək; |
| *dekabr* | "İstedadlı şagirdlərin qabiliyyətlərinin inkişafı" mövzusunda onların valideynləri ilə söhbət aparmaq; "I yarımilin yekunları və növbəti yarımildə qarşıda duran əsas məsələlər" mövzusunda valideyn iclasını keçirmək; Yeni il tədbirinə hazırlıq və valideynlərin tədbirdə iştirakının təmin olunması; "Valideyn Komitəsi"nin müxtəlif sektorlar üzrə nəzarət edən üzvlərinin I yarımilin yekunlarına həsr olunmuş hesabatı; |

| | |
|---|---|
| ***yanvar*** | "Valideyn Komitəsi"nin yığıncağı: II yarımildə "Valideyn Komitəsi"nin fəaliyyətinin planlaşdırılması; |
| ***fevral*** | "Valideyn Komitəsi"nin yığıncağı. Yığıncağın məqsədi:<br>- "Ev şəraitində dərslərə səmərəli hazırlaşmaq üçün şagirdlərə necə kömək etmək olar?" mövzusunda valideynləri maarifləndirmək; |
| ***mart*** | "Valideyn Komitəsi"nin yığıncağında "Yeniyetməlik dövrü və zərərli vərdişlər" mövzusunda komitənin sağlamlıq sektoru üzrə nümayəndəsinin məruzəsi; Valideyn iclası. Mövzu: şagirdlərin gündəlik rejiminin tənzimlənməsi; Novruz bayramı tədbirinə hazırlıq və tədbirdə iştirakının təmin olunması; |
| ***aprel*** | Açıq qapı günlərində valideynlərin məktəbə gəlişinin və dərslərdə iştirakının təmin olunması; "Valideyn Komitəsi"nin yığıncağı, komitənin təlimə nəzarət sektoru üzrə nümayəndəsinin hesabatı; |
| ***may*** | Şagirdlərin məktəbdənkənar fəaliyyəti haqqında valideynlərlə müzakirə;<br>"Normal qidalanmaq sağlam böyümənin vacib şərtidir" mövzusunda SVK-nın yığıncağında komitənin sağlamlıq sektorunun nümayəndəsinin məruzəsi və hesabatı; |
| ***iyun*** | Valideyn iclası. Mövzu: Dərs ilinin yekunları; Növbəti tədris ilinə hazırlıq məqsədilə sinif otağının yüngül təmirinin həyata keçirilməsi; |

SVK və sinif rəhbəri birlikdə təxmini bu səpkidə fəaliyyət planı müəyyənləşdirməlidir. SVK-nın iclaslarında ehtiyac duyulduqda məktəb rəhbəri, həmin sinifdə tədrislə məşğul olan müəllimlər, psixoloq, məktəb həkimi, kitabxanaçı və digərləri iştirak etməlidir. SVK iclasları aşağıdakı hallarda təşkil olunmalıdır:

- valideynlərə bir neçə gün öncədən iclasın keçiriləcəyinə dair məlumat verilməlidir (telefon, e-mail, yazılı dəvət və s.). Buna "Valideyn Komitəsi"nin sədri birbaşa məsuliyyət daşıyır. Üzrlü səbəbdən gələ bilməyən valideynlərə sonradan uşaqları ilə bağlı iclasda aparılan müzakirələri çatdırmaq lazımdır. Lakin əksər hallarda valideynlərin iştirakı mütləqdir;
- əgər hər hansısa bir fənn müəlliminin iclasda iştirakının üzrlü səbəbdən alınmayacağı məlum olarsa, bu halda sinif rəhbəri islasdan öncə həmin fənn müəllimiylə görüşərək hər bir uşaq haqqında ayrılıqda məlumat əldə etməlidir;
- SVK-nın iclaslarında, eyni zamanda valideynlərin öz uşaqlarının təlim-tərbiyəsində qarşılaşdıqları çətinliklər, həmçinin məktəblilərlə hər hansı bir fənn müəllimləri arasında yaranan ünsiyyət problemləri müzakirə olunur və aradan qaldırılması yolları müəyyənləşdirilir və s.

SVK iclasları yekunda sinif rəhbəri tərəfindən aşağıdakı qaydada protokollaşdırılır:

____№-li tam orta məktəbin____sinfinin
____ __________ -ci il tarixli iclası

**PROTOKOL № .**

İştirak edirdi ________ nəfər
Dəvət olunanlar: ______________________

1. Təşkilat işləri üzrə direktor müavini_______________

2. Psixoloq_______________________________

3. Kitabxanaçı _________________________________

Valideyn iclası başlandı saat_______qurtardı _________

Gündəlik məsələlər:

1. Sinif şagirdlərinin tədris ilinin ilk üç ayında (sentyabr, oktyabr, noyabr) təlim-tərbiyədə göstərdikləri nəticələrin müzakirəsi;

2. Sinif şagirdlərinin Dirçəliş günü ilə bağlı Şəhidlər muzeyinə ekskursiyasının təşkili;

3. Cari məsələlər.

Reqlament:

Məruzə üçün 5 (və ya 10) dəqiqə, çıxışlar üçün 3 dəqiqə

I Məsələ

Eşidildi: Məruzəçi danışdıqdan sonra bir neçə çıxışçı dinlənilir ________________________________________

Qərara alındı: ____________________________________

II Məsələ _________________________________________

Qərara alındı: ____________________________________

III Məsələ: _______________________________________

Qərara alındı: ____________________________________

İclasın sədri:______________________________ (imza)

Katibi ____________________________________ (imza)

Qeyd edək ki, müasir dövrdə valideynlərin vaxt məhdudiyyətini nəzərə alaraq SVK-nın sədri iclasları bəzən sosial şəbəkələrdə təşkil edir. Facebook, Whatsapp və digər sosial şəbəkələr üzərindən müzakirələr aparılır.

# UŞAQLARIN KİTAB SEVGİSİ











## 2.7. SİNİF RƏHBƏRLƏRİNİN İŞ FƏALİYYƏTİ

Azərbaycan Respublikası Təhsil Nazirinin 05 mart 2009-cu il 270 nömrəli əmri ilə "Sinif rəhbəri haqqında" Əsasnamə qəbul edilmişdir. Sinif rəhbərinin fəaliyyətində Azərbaycan Respublikasının Təhsil Qanunu, Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu, BMT-nin Uşaq Hüquqları Konvensiyası, məktəbin nümunəvi Əsasnaməsi öz əksini tapır. Sinif rəhbərlərinin işi məqsədyönlü, sistemli və planlaşdırılmış formada həyata keçirilir ki, buna da tərbiyə işləri üzrə direktor müavini nəzarət edir. Lakin sinif rəhbərləri məktəb direktorları tərəfindən təyin edilir.

Sinif rəhbərlərinin fəaliyyət istiqamətləri ilk olaraq sağlam sinif kollektivini formalaşdırmaqdır. Şəxsiyyətin inkişafı üçün əlverişli psixoloji-pedaqoji mühitin, habelə fərdi özünüifadə və özünüinkişaf mühitinin yaradılması, müəllimlərlə şagirdlər arasında humanist qarşılıqlı əlaqələrin, münasibətlərin qurulması üçün sistemli iş aparılmasını sinif rəhbərləri təmin etməlidirlər. Eyni zamanda şagird kollektivinin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında, məktəbin daxili intizam qaydalarının (davamiyyət, geyim qaydaları, inventarların qorunması və s.) tətbiqində sinif rəhbərləri mühüm rol oynayır. Sinif rəhbərləri, həmçinin təhsilalanların sosial əhəmiyyətli və yaradıcı fəaliyyətlərinin təşkilini və idarə olunmasını təmin etməlidirlər. Sinif rəhbərləri, eyni zamanda uşaqların hüquqlarının müdafiəsi istiqamətində aidiyyatı qurumlarla əlaqələrin yaradılmasını həyata keçirməlidirlər.

Digər müəllimlərlə müqayisədə sinif rəhbərlərinin də özünəməxsus hüquqları vardır:

- uşaqların fiziki və psixoloji sağlamlıqları ilə bağlı aidiyyatı şəxslərdən məlumatların əldə edilməsi;

- rəhbərlik etdiyi sinifdə fənn müəllimləri və psixoloqların işlərinin əlaqələndirilməsi;

- müxtəlif bilik və əyləncə xarakterli yarışların təşkil edilməsi;

- təcrübi-eksperimentlərin aparılması;

- valideynlərlə iş aparılması, onların təlim-tərbiyə prosesində iştirakının təmin edilməsi və s.

Sinif rəhbəri tərəfindən illik planlaşdırma tərtib olunmalıdır. Bu planlaşdırmada bölmələr üzrə görüləcək işlər öz əksini tapmalıdır.

*I BÖLMƏ: SİNİF KOLLEKTİVİNİN TƏŞKİLİ VƏ ONA PEDAQOJİ RƏHBƏRLİK*

| № | Görüləcək işlər | Tarix | İcraçı | Qeyd |
|---|---|---|---|---|
| | | | | |

*II BÖLMƏ: ŞAGİRDLƏRİN TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ*

1. Fənn müəllimləri ilə əlaqə;
2. İstedadlı şagirdlərlə iş;
3. Zəif oxuyan şagirdlərlə iş.

*III BÖLMƏ: DƏRSDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİ*

*IV BÖLMƏ: VALİDEYNLƏRLƏ ƏLAQƏ*

Həmin istiqamətlər üzrə sinif rəhbərləri illik planlaşdırma tərtib edə bilərlər. Təbii ki, bu planlaşmada sinif rəhbərinin vəzifələri aşağıdakı şəkildə öz əksini tapmalıdır:

- təlim prosesinin təşkili istiqamətində görüləcək işlər;

- təşkilati-koordinasiya üzrə görüləcək işlər;

- kommunikativ iş istiqamətində görüləcək işlər;
- təhlil-proqnozlaşdırması üzrə görüləcək işlər.

Sinif rəhbərləri tərəfindən tərtib olunan illik plan məktəb rəhbərlikləri tərəfindən rəsmi qaydada təsdiq olunur və müəssisənin Əsasnaməsində, daxili əmək intizamı qaydalarında, tədbirlər planında və protokollarda, habelə digər rəsmi sənədlərdə öz əksini tapır.

Tərbiyə işləri üzrə direktor müavinləri tərəfindən sinif rəhbərlərinin fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilməlidir:

1. Şagirdlərin sosial inkişaf səviyyəsini əks etdirən uğurluluq meyarı. Buraya daxildir: şagirdlərdə yüksək intizamlılıq, mədəniyyət, əxlaq qaydaları; şagirdlərin davamiyyəti, psixoloji iqlim;

2. Sinif rəhbərləri üçün nəzərdə tutulmuş sənədlər üzrə fəaliyyətin qiymətləndirilməsi meyarı. Buraya daxildir: konkret vəzifələrin qoyuluşu və onların icrası; davamiyyət, tapşırıqlara, bölmə və dərnəklərə aid sinif jurnalları; şəxsiyyətin öyrənilməsinin pedaqoji və psixoloji xəritəsi və s.

Sinif rəhbərləri seçilərkən onların şəxsi keyfiyyətləri də nəzərə alınmalıdır. Belə ki, sinif rəhbəri həmin keyfiyyətlərlə yanaşı, yaradıcı, yenilikçi, ünsiyyətcil və məsuliyyətli olmalıdır. O, valideynlərlə duzgün ünsiyyət qurmağı, şagirdlərin ailələri ilə sıx əlaqələr yaratmağı, yenilikçi xarakterli tədbirləri təşkil etməyi, tədris prosesinin digər iştirakçıları ilə qarşılıqlı fəaliyyət yaratmağı bacarmalıdır.

# ASUDƏ VAXTIN TƏŞKİLİ







# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycanda ailə-məktəb münasibətləri. URL:https://news. milli.az/society/93471.html
2. "Kiçik Akademiya haqqında" Əsasnamə. URL:https://sabahinalimleri.edu.az/index.php/senedler/item/44-kidzik-akademiya.html
3. Məktəbdə dərnək rəhbərinin əmək funksiyası. URL: Aztehsil.com.https://aztehsil.com›mel›153-mktbd-drnk-rhbr.
4. "Məktəblinin dostu" layihəsi. URL: https://baku. edu.gov.az/az/page/9/4409
5. "Sinif rəhbəri haqqında" Əsasnamə. URL: http://www. tipii.edu.az/ noduploads/document/sinif-rahbari-haqqinda-asasnama.pdf
6. Məktəblərdə icma əsaslı valideyn assosiasiyası yaradılacaq. URL:https://azedu.az/az/news/19989-mekteblerde-icma-esasli-valideyn -assosiasiyasi-yaradilacaq-
7. "Sinif Valideyn Komitəsi"nin iş planı. URL:sinifrəhbəri.6ci sinif.blogspot.com › 2017/08 › sinif-valideyn.
8. Sinif valideyn iclasları-onların təşkili. URL:https:// www. aztehsil.com › news › 3008-snf-vald.
9. "Tərbiyə müəssisələrində valideynlər komitəsinin fəaliyyəti haqqında" Əsasnamə. URL:https://e-qanun.az/framework-/10105
10. Tacik. URL: https://www.anrt.tj/ru/prezidium-an-rt/podrazdeleniya-prezidiuma-an-rt/izdatelstvo-donish
11. Ukrayna. URL: https://ru.wikipedia.org/wiki
12. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında. URL:https://e-qanun.az/framework/21148

13. "Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası haqqında" Əsasnamə: URL:http://www.tipii.edu.az/noduploads/ document/mumi-tahsil-muassisasinin-pedaqoji-surasi-haqqinda.pdf
14. Valideyn-Müəllim Assosiasiyalarının Yaradılması və Fəaliyyəti Üzrə Milli Siyasətin Formalaşdırılmasına Dair. URL:http://www.reliablefuture.org/fragment/publications/1/PTA%20Conference%20Report_AZE%202004.pdf
15. Baker, P.J. (1991). Metaphors of mindful engagement and a vision of better schools. Educational Leadership, 48(7), 32-35.
16. Baker, P.J. & Moss, R K. (1993). Creating a com-munity of readers. School Community Journal, 3(1), 23-36.
17. Coates, L., Salinas, K.C., Sanders, M.G., & Simon, B. (1997). School, family, and community partnerships: Your handbook for action. Thousand Oaks, CA: Corwin Press.
18. EDB"Rationale and Principles of Gifted Education Policy in Hong Kong". Archived from the original on 2012-12-18.EDB Website. Retrieved on March 29, 2012.
19. Epstein, J.L. (2001). School, family, and community partnerships: Preparing educators and improving schools. Boulder, CO: Westview Press. Epstein, J. L.,
20. John Crace (28 August 2007). "Why Warwick stopped running the gifted and taolented programme - Gifthorse bolts". The Guardian. Retrieved 7 October2010.
21. Julie Henry (23 January 2010). "Ministers pull the plug on gifted and talented academy". The Daily Telegraph. Retrieved 21 October 2010.
22. National Association for Gifted Children (2011).
23. Peng, S., Lee, R. (1990). Home variables that make a difference: A study of 1988 eighth graders. Manuscript in prepara-

tion. Philadelphia: Center for Research in Human Development and Education,. Temple University
24. Redefining giftedness for a new century: Shifting the paradigm [Position Paper] URL: http://www.nagc. org/sites/default/files/Position%20Statement/Redefining%20Giftedness%20for%20a%20New%20Century.pdf
25. Sak, U. (2011). An overview of the social validity of the Education Programs for Talented Students Model (EPTS). Education and Science, 36, 213-229.
26. School community: URL:https://www.edglossary.org/school-community/
27. School community: URL:https://www.ascd.org/el/articles/creating-a-school-community
28. School community: URL:https://study.com/ academy/ lesson/the-school-community-definition-members.html
29. The School Community Journal, Vol. 2, No. 2, Fall/Winter 1992, and in Vol. 8, No. 2, Fall/Winter 1998
30. The school community Journal, Vol.1, No.1, Spring\Summer 1991
31. The School Community Journal,Vol. 1,No.2, Fall/ Winter 1991. Staff. 1990. Purposes. PTA Magazine 32 (Sep-tember):
32. The School Community Jounud, Vol 1, No.2, Fallj Winter l991.

## MÜNDƏRİCAT

**GİRİŞ** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
**I FƏSİL: İctimaiyyətin təhsildə rolu**
1.1. Ailə və məktəb əməkdaşlığının mahiyyəti . . . . . . .7
1.2. "Respublika Təhsil Şurası" İctimai Birliyinin fəaliyyət istiqamətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14
1.3. "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası"nın iş prinsipi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .23
1.4. "Azərbaycan Gənc Müəllimlər Assosiasiyası"nın fəaliyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .39
**II FƏSİL: Təhsilin inkişafında məktəbdaxili fəaliyyət növləri və formaları**
2.1. "Məktəb İcması"nın fəaliyyəti . . . . . . . . . . . . . . . . .47
2.2. "Məktəblinin dostu" layihəsinin məqsədi . . . . . . . .56
2.3. "Kiçik Akademiya"ların fəaliyyəti . . . . . . . . . . . . . .61
2.4. "Fənn dərnəkləri və dərsdənkənar məşğələlər"in keçirilməsi formaları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .70
2.5. Ümumtəhsil müəssisələrində Pedaqoji Şuranın fəaliyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .85
2.6. Məktəblərdə "Valideyn Komitəsi"nin fəaliyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .90
2.7. Sinif rəhbərlərinin iş fəaliyyəti . . . . . . . . . . . . . . . .99
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** . . . . . . . . . . . .103

**Zəhra Muradova, Könül Mikayılova,**
**Tavat Muradlı, Gülnarə Şahmuradova**

**Təhsilin inkişafında**
**məktəb və ictimaiyyətin rolu**

**(Metodik vəsait)**

Bakı, "Zəngəzurda" Çap Evi, 2024. - 108 səh.

**Çap evinin rəhbəri:**
Mübariz Binnətoğlu

**Kompüter tərtibçisi:**
Şamxal Şabiyev

**Korrektor:**
Şəbnəm Allahverdiyeva

Çapa imzalanmışdır: 11.02.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 6,75 ç.v.
Sifariş: 723
Sayı: 100

"Zəngəzurda" Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat pr, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 12 510 63 99
+994 55 253 53 33
e-mail:zengezurda1868@mail.ru